## MÜNDƏRİCAT


| | *Paraqraf* | *Səhifə* |
|---|---|---|
| I Ümumi hissə | 1 - 7 | 2 |
| II Konvensiyanın 2-7-ci maddələri ilə bağlı məlumat | 8 - 15 | 3 |
| Maddə 2 | 16 - 39 | 5 |
| Maddə 3 | 40 - 43 | 9 |
| Maddə 4 | 44 - 54 | 9 |
| Maddə 5 | 55 - 170 | 11 |
| Maddə 6 | 171 - 193 | 31 |
| Maddə 7 | 194 - 202 | 35 |

# I. ÜMUMİ HİSSƏ

1. Azərbaycan dövləti özünün daxili siyasətində respublika ərazisində məskunlaşmış və Azərbaycan etnogenezisinin formalaşmasında müəyyən rol oynamış milli azlıqların azərbaycanlılarla yanaşı yaşamasını və onlarla bərabər bütün hüquqlara malik olmalarını qanunla həyata keçirir. Əsrlər boyu müxtəlif milli azlıqlar azərbaycanlılarla birlikdə sülh və əmin-amanlıqda yaşamışdır.

2. Əvvəlki məruzədə də qeyd olunduğu kimi Azərbaycan Respublikasının Dağlıq Qarabağ ərazisinin və yeddi ətraf rayonun Ermənistan tərəfindən işğalının davam etdirilməsi hazırkı Konvensiyanın tam və səmərəli implementasiyası üçün ən böyük maneə kimi qalmaqdadır. Bu xüsusda BMT-nin Təhlükəsizlik Şurası tərəfindən qəbul olunmuş dörd qətnamə (822, 853, 874 və 884) hələ də həyata keçirilməmişdir. Qeyd edirik ki, qətnamələr Azərbaycan Respublikasının ərazi bütövlüyünü və suverenliyini bir daha təsdiq etmiş, işğal olunmuş ərazilərdən işğalçı qüvvələrin çıxarılmasını tələb etmişdir.

3. Ermənistanın işğalçılıq siyasəti nəticəsində Azərbaycan Respublikasında bir milyondan çox qaçqın və məcburi köçkün yaşamaqdadır ki, bu da həmin insanların əsas hüquq və azadlıqlarının təminatı üçün çətinliklər yaradır. Ölkəmizdə bu qrup insanların sosial vəziyyətinin yaxşılaşdırılması üçün mütəmadi olaraq tədbirlər görülür.

4. "İrqi ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması haqqında" Konvensiyaya Azərbaycan Respublikası 95-IC nömrəli, 31 may 1996-cı il qanunu ilə qoşulmuşdur.

5. Azərbaycan Respublikasının ilkin və ikinci dövri məruzələri (CERD/C/350/Add.1) İrqi ayrı-seçkiliyin aradan qaldırılması üzrə Komitə (bundan sonra "Komitə") tərəfindən 18-19 avqust 1999-cu il tarixində, üçüncü və dördüncü dövri məruzələri (CERD/C/440/Add.1) 4-7 mart 2005-ci il tarixində, beşinci və altıncı dövri məruzələrinə isə (CERD/C/AZE/6) 11-12 avqust 2009-cu il tarixində baxılmışdır. Komitənin 26 avqust 2009-cu il tarixində keçirilən 1968-ci iclasında son təqdim olunan birgə məruzəyə (beşinci və altıncı) yekun icmal (CERD/C/AZE/CO/6) qəbul olunmuşdur.

6. Azərbaycan Respublikasının hazırda təqdim etdiyi yeddi, səkkiz və doqquzuncu birgə məruzə "İrqi ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması haqqında" Konvensiyanın 9-cu maddəsinin 1-ci bəndinə əsasən təqdim olunan məruzələrin mətn və forması haqqında rəhbər qaydalara əsasən hazırlanmışdır. Hazırkı məruzə Azərbaycan Respublikasının təqdim etdiyi beşinci və altıncı birgə məruzədən sonrakı dövrü əhatə edir (2007-2013). Bu məruzə hazırlanarkən beşinci paraqrafda qeyd olunan yekun icmal nəzərə alınmışdır.

7. Hazırkı məruzə Azərbaycan Respublikası Prezidentinin 2963 nömrəli, 24 iyun 2013-cü il Sərəncamına əsasən yaradılan işçi qrupu tərəfindən hazırlanmışdır. İşçi qrupunda on səkkiz dövlət qurumu təmsil olunmuşdur. Sözügedən Sərəncamının ikinci bəndinə əsasən hazırkı məruzə vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlıqda hazırlanmışdır.

## II. KONVENSİYANIN 2-7-Cİ MADDƏLƏRİ İLƏ BAĞLI MƏLUMAT

8. Azərbaycan dövlətinin əsas məqsədi fərdlərin irqindən, inancından, etnik mənsubiyyətindən və digər hallardan asılı olmayaraq öz hüquq və vəzifələrindən eyni dərəcədə faydalandığı mühitə nail olmaqdır. Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsində də təsbit olunduğu kimi, Azərbaycan dövləti irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir.

9. Qeyd edirik ki, Azərbaycan Respublikasının təqdim etdiyi beşinci və altıncı birgə dövri məruzələrdən sonra da "İrqi ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması haqqında" Konvensiyanın səmərəli şəkildə tətbiq edilməsi sahəsində bir sıra qanunvericilik və digər tədbirlər görülmüş və görülən tədbirlərin nəticəsi kimi müsbət irəliləyişlər əldə edilmişdir.

10. Azərbaycan Respublikası Prezidentinin 27 dekabr 2011-ci il tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı" təsdiq edilmişdir. Milli Fəaliyyət Proqramında normativ-hüquqi bazanın, dövlət orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi, əhalinin müxtəlif qruplarının hüquqlarının müdafiəsi və digər istiqamətlər üzrə tədbirlər müəyyən olunmuşdur. Belə ki, "İrqi ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması haqqında" Konvensiyada öz əksini tapmış hüquqların milli qanunvericilikdə daha səmərəli şəkildə qorunması ilə bağlı Milli Fəaliyyət Proqramının 1.1 və 1.2-ci bəndləri xüsusi ilə qeyd edilməlidir. Sözügedən proqramın 1.1-ci bəndində Azərbaycan Respublikası qanunları layihələrinin hazırlanması zamanı Azərbaycan Respublikasının Konstitusiyasında və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə təsbit edilmiş insan hüquq və azadlıqlarının əsas meyar kimi rəhbər tutulması təsbit edilmişdir. Milli Fəaliyyət Proqramının 1.2-ci bəndində isə Azərbaycan Respublikasının tərəfdar çıxdığı insan hüquqlarına və azadlıqlarına dair beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərin həyata keçirilməsi və Azərbaycan Respublikasının normativ-hüquqi aktlarının beynəlxalq hüquqi sənədlərə uyğunluğunun təmin edilməsi öz əksini tapmış və bundan irəli gələn məsələlər Azərbaycan Respublikasının Nazirlər Kabinetinə, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına, Azərbaycan Respublikasının Ədliyyə, Xarici İşlər nazirliklərinə və həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının İnsan Hüquqları üzrə Elmi-Tədqiqat İnstitutuna tapşırılmışdır.

11. Ümumilikdə Milli Fəaliyyət Proqramında əhalinin müxtəlif qruplarının hüquqlarının müdafiəsi, müxtəlif dövlət orqanlarının insan hüquqlarının mühafizəsi yönündə fəaliyyətinin təkmilləşdirilməsi, insan hüquqları sahəsində tədris, elmi-analitik və maarifləndirmə tədbirlərinin həyata keçirilməsi, insan hüquqları sahəsində beynəlxalq təşkilatlarla əməkdaşlıq və Milli Fəaliyyət Proqramının həyata keçirilməsinin əlaqələndirilməsi, monitorinqi və qiymətləndirilməsi fəsilləri altında müxtəlif müddəalar öz əksini tapmışdır.

12. Hesabat dövründə qanunvericilik sistemində edilmiş önəmli dəyişikliklərdən biri də, 2009-cu il martın 18-də Konstitusiyaya əlavə və dəyişikliklərin edilməsi ilə əlaqədar keçirilmiş referendum nəticəsində ayrı-seçkiliyə məruz qalmamaq hüquqlarının məzmunun genişləndirilməsi, onların mühüm təminatlarının Konstitusiya səviyyəsində təsbit edilməsidir.

13. Azərbaycan Respublikası Konstitusiyasının 18-ci maddəsinə görə Azərbaycan Respublikasında din dövlətdən ayrıdır. Qanun qarşısında bütün dini etiqadlar bərabərdir. Dini qurumlar heç bir ayrı-seçkiliyə məruz qalmadan qeydiyyatdan keçə bilirlər. Ölkəmizdə qeydiyyatdan keçmiş 705 islam, 24 xristian, 7 yəhudi, 2 bəhai və 1 krişna dini qurumları fəaliyyət göstərir. Hazırda ölkə ərazisində 1800-dən artıq məscid, 5 pravoslav, 1 katolik, 1 lüteran, 2 alban-udi, 4 gürcü-pravoslav kilsəsi, 6 sinaqoq sərbəst fəaliyyət göstərir.

14. Ölkə əhalisinin etnik tərkibi haqqında məlumatlar siyahıyaalınmanın nəticələri əsasında əldə edilir. Yekun icmalın 11-ci bəndində qeyd olunan son siyahıyaalmanın nəticələrinin dövri məruzəyə daxil olunması ilə əlaqədar qeyd edirik ki, Azərbaycan Respublikası Prezidentinin 7 iyun 2006-cı il tarixli Sərəncamına əsasən 2009-cu ilin aprel ayında siyahıyaalma keçirilmişdir. Dövlət Statistika Komitəsi tərəfindən aparılmış ölkə üzrə əhali siyahıyaalınmasında sorğuya cəlb olunan insanlar öz milliyyəti və dilini müstəqil olaraq qeyd etmiş, suallarla bağlı cavabların könüllülük prinsipinə əsaslandığı haqqında təlimlər keçirilmişdir. BMT-nin Avropa İqtisadi Komissiyasının əhali siyahıyaalınmasına dair tövsiyələrinə və standartlarına uyğun keçirilmiş siyahıyaalmanın nəticələrində insanların milliyyəti və dili ilə bağlı məlumatlar əhatə olunmuşdur. Eyni zamanda bu etnik azlıqlara da şamil edilmiş sorğunun beynəlxalq standartlara uyğun aparılması və təlimlərin keçirilməsi haqqında qeyd Avropa Şurasının Milli azlıqların müdafiəsi haqqında Çərçivə Konvensiyasının Məşvərətçi Komitəsi tərəfindən qəbul edilmiş üçüncü rəydə öz əksini tapmışdır. Siyahıyaalmada əcnəbilər və vətəndaşlığı olmayan şəxslər də iştirak etmişdir.

15. 2009-cu il əhalinin siyahıyaalınmasının məlumatlarına əsasən Azərbaycan Respublikasının milli tərkibi aşağıdakı göstəricilərlə səciyyələnir:

| Milli tərkib | min nəfər | yekuna nisbətən faizlə | öz millətinin dilini ana dili sayanlar, faizlə |
|---|---|---|---|
| Əhalinin sayı-cəmi | **8922,4** | **100,0** | **98,4** |
| *o cümlədən:* | | | |
| azərbaycanlılar | 8172,8 | 91,6 | 99,7 |
| ləzgilər | 180,3 | 2,0 | 90,1 |
| ermənilər | 120,3 | 1,3 | 99,9 |
| ruslar | 119,3 | 1,3 | 98,9 |
| talışlar | 112,0 | 1,3 | 42,5 |
| avarlar | 49,8 | 0,6 | 93,3 |
| türklər | 38,0 | 0,4 | 83,7 |
| tatarlar | 25,9 | 0,3 | 93,2 |
| tatlar | 25,2 | 0,3 | 75,4 |
| ukraynalılar | 21,5 | 0,3 | 97,6 |
| saxurlar | 12,3 | 0,1 | 95,3 |
| gürcülər | 9,9 | 0,1 | 97,8 |
| yəhudilər | 9,1 | 0,1 | 93,5 |
| kürdlər | 6,1 | 0,1 | 36,1 |
| qrızlar | 4,4 | 0,04 | 28,5 |
| udinlər | 3,8 | 0,04 | 99,3 |
| xınalıqlar | 2,2 | 0,02 | 97,4 |
| digər millətlər | 9,5 | 0,1 | 80,5 |

## Maddə 2

16. "İrqi ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması haqqında" Beynəlxalq Konvensiyaya əsasən, Azərbaycan Respublikası Hökuməti irqinə, dərisinin rənginə, mənşəyinə, milli və etnik mənsubiyyətinə görə heç bir ayrı-seçkiliyə yol vermədən bütün insanların siyasi, iqtisadi, sosial, mədəni və ictimai həyatın digər sahələrində insan hüquqları və əsas azadlıqlarının bərabər əsaslarda təmin olunması üçün müvafiq dövlət siyasətini həyata keçirir.

17. Yuxarıda qeyd olunduğu kimi, Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsinə əsasən dövlət irqindən, milliyyətindən, dinindən, mənşəyindən və bu maddədə nəzərdə tutulmuş digər əsaslardan asılı olmayaraq hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir. İnsan və vətəndaş hüquqlarını və azadlıqlarını irqi, milli, dini, dil, cinsi, mənşəyi, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırmaq qadağandır.

18. "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Qanunun 3-cü maddəsinə əsasən Azərbaycan Respublikası vətəndaşlarının hüquqları, azadlıqları və vəzifələri onların mənşəyindən, sosial və əmlak vəziyyətindən, irqi və milli mənsubiyyətindən, cinsindən, təhsilindən, dilindən, dinə münasibətindən, siyasi və başqa əqidələrindən, məşğuliyyət növündən və xarakterindən, yaşayış yerindən, həmin yerdə yaşadığı müddətdən və başqa hallardan asılı olmayaraq bərabərdir.

19. İnsan və vətəndaş hüquq və azadlıqlarının irqi, milli, dini və digər əsaslara görə məhdudlaşdırılmasının yolverilməzliyi prinsipi Konstitusiya ilə yanaşı, Cinayət, Cinayət-Prosessual, Mülki-Prosessual, Ailə, Əmək məcəllələrində və digər qanunvericilik aktlarında təsbit edilmişdir.

20. Yekun icmalın 8-ci bəndində əks olunmuş irqi ayrı-seçkiliyin aradan qaldırılması barədə qəbul olunmuş siyasətin tam həyata keçirilməsi və "İrqi ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması haqqında" Beynəlxalq Konvensiyanın milli və yerli səviyyədə icrasına nəzarət və əldə olunan inkişafın qiymətləndirilməsi ilə əlaqədar bildiririk ki, insan hüquqları sahəsində həyata keçirilən tədbirlərin davamlılığının təmin edilməsi məqsədilə təsdiq olunmuş Milli Fəaliyyət Proqramında əhalinin müxtəlif qruplarının insan hüquq və azadlıqlarının daha səmərəli qaydada təmin edilməsi üçün fəaliyyət istiqamətləri müəyyən olunmuşdur. Fəaliyyət Proqramı üzrə müxtəlif məsələlərin icrası aidiyyəti dövlət qurumlarına tapşırılmışdır. Proqramdan irəli gələn işlərin icrasına nəzarət məqsədi ilə isə Proqramın 6.1-ci bəndinə əsasən Milli Fəaliyyət Proqramı üzrə icra orqanları nümayəndələrindən ibarət Milli Fəaliyyət Proqramının həyata keçirilməsinin əlaqələndirilməsi üzrə işçi qrupu öz fəaliyyəti barədə müntəzəm surətdə Azərbaycan Respublikasının Prezidentinə məlumat verir. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Milli Fəaliyyət Proqramının həyata keçirilməsinin əlaqələndirilməsi üzrə işçi qrupunun təqdim etdiyi məlumatları təhlil edərək onun təkmilləşdirilməsinə dair təkliflər verir.

21. Korrupsiyaya qarşı mübarizə ilə bağlı qanunvericilikdə aparılmış islahatlarla əlaqədar qeyd edirik ki, "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında" 24 mart 2011-ci il tarixli Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq edilmiş dəyişikliklərdən sonra Cinayət Məcəlləsinin 308-ci maddəsində təsbit olunmuş "vəzifəli şəxs" anlayışı genişləndirilmiş, Azərbaycan Resupblikasının hüdudlarından kənarda törədilmiş korrupsiya cinayəti və qulluq mənafeyi əleyhinə olan

digər cinayətlər zamanı başqa xarakterli cinayətlərdə olduğu kimi ikili kriminallaşdırma tələbi aradan qaldırılmışdır.

22. Bundan əlavə, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin rüşvət alma, rüşvət vermə və nüfuz alverinə görə cinayət məsuliyyəti nəzərdə tutan maddələrin dispozisiyasında edilmiş müvafiq dəyişikliklərdən sonra əvvəlkindən fərqli olaraq, rüşvətlə əlaqədar "təklif və ya vəd edilməsi, təklif və ya vədin qəbul edilməsi" əməlləri də kriminallaşdırılmışdır.

23. Yekun icmalın 8-ci bəndində qeyd olunmuş ayrı-seçkiliyin qadağan olunması ilə bağlı siyasətin tam həyata keçirilməsi ilə əlaqədar dövlət orqanlarının fəaliyyətinin müasir standartlara uyğun təkmilləşdirilməsi məqsədilə 2007-2011-ci illərdə "Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiya" icra edilmişdir.

24. Azərbaycan Respublikasında korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən tədbirlərin davamlılığının təmin edilməsi, dövlət orqanlarının fəaliyyətində şəffaflığın artırılması, idarəçiliyin müasir standartlara uyğun qurulması, açıq hökumət prinsiplərinin təşviq edilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 5 sentyabr 2012-ci il tarixli Sərəncamı ilə Açıq Hökumətin təşviqinə və Korrupsiyaya qarşı mübarizəyə dair Milli Fəaliyyət Planları (2012-2015-ci illər üzrə) təsdiq edilmişdir.

25. "Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 2421 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Açıq hökumətin təşviqinə dair" və "Korrupsiyaya qarşı mübarizəyə dair" 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planları çərçivəsində 2013-cü il ərzində Daxili İşlər Nazirliyinin və struktur xidmətlərin rəhbərliyi tərəfindən 5000-dən çox, o cümlədən respublikanın 64 şəhər və rayonu üzrə 476 vətəndaş qəbul edilmişdir. Daxili İşlər Nazirliyi sistemi üzrə ümumilikdə 45 minə yaxın vətəndaş müraciətinə baxılmışdır ki, onlardan 11 minindən çoxu nəzarətə götürülmüşdür. Bütün müraciətlər ətraflı və operativ araşdırılmış, təşəbbüskarlara dolğun yazılı cavablar verilmiş, hüquqları izah edilmişdir.

26. 24 elektron xidmət üzrə aparılan əməliyyatların və fərdi məlumatların qorunması məqsədilə zəruri texniki təhlükəsizlik tədbirləri görülmüş, cərimələrin və digər ödənişlərin real vaxt rejimində Mərkəzi Bankın Kütləvi Ödənişlər Üzrə Mərkəzləşdirilmiş İnformasiya sistemi vasitəsilə elektron formada həyata keçirilməsi üçün "Elektron Ödəniş Sistemi" yaradılmışdır. Polis orqanlarına qəbulun müsabiqə və şəffaflıq əsasında həyata keçirilməsi mexanizmlərinin təkmilləşdirilməsi baxımından "Daxili işlər orqanlarında xidmətə qəbul üçün müraciətlərin və sənədlərin qəbulu üzrə inzibati reqlament" təsdiq edilərək Ədliyyə Nazirliyində dövlət qeydiyyatına alınmışdır.

27. 2009-cu ilin əvvəlində korrupsiya cinayətlərinin, onları törətmiş şəxslərin və bu növ cinayət işlərinin istintaqı və məhkəməmə baxışının nəticələri barədə məlumatların mərkəzləşdirilmiş qaydada qeydiyyata alınması məqsədilə vahid informasiya bazası yaradılmaqla, fəaliyyətə başlamışdır.

28. Vətəndaşların müraciətlərinə baxılması işinin təkmilləşdirilməsi ilə əlaqədar korrupsiya halları ilə üzləşmiş vətəndaşların Azərbaycan Respublikası Baş prokuroru yanında Korrupsiyaya qarşı mübarizə idarəsinə birbaşa və ödənişsiz müraciət etməsi məqsədilə 3 mart 2011-ci il tarixdə idarənin nəzdində 161 nömrəli "Qaynar xətt" əlaqə mərkəzi yaradılmaqla fəaliyyətə başlamışdır.

29. Azərbaycan Respublikası Prezidentinin 11 mart 2011-ci il tarixli Fərmanına əsasən Azərbaycan Respublikası Baş prokuroru yanında Korrupsiyaya qarşı mübarizə idarəsinin prokurorluq işçilərinin ümumi say tərkibi 60 ştat vahidi artırılaraq 100 nəfərə çatdırılmış, eyni zamanda texniki işçilərin sayında da əhəmiyyətli dəyişiklik edilmişdir. 18 mart 2011-ci ildə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən "Əmləliyyat-axtarış fəaliyyəti haqqında" və "Prokurorluq haqqında" Qanunlara dəyişikliklər edilərək, Respublika Baş prokuroru yanında Korrupsiyaya qarşı mübarizə idarəsinə əməliyyat-axtarış fəaliyyətini həyata keçirmək səlahiyyəti verilmişdir.

30. 2011-ci ildə layihə çərçivəsində məhkəmələrə müraciət imkanlarını asanlaşdıran məhkəmə sisteminin vahid internet portalı (www.court.az) da yaradılmışdır. Portal məhkəmələr, hakimlər, məhkəmə fəaliyyəti, baxılan işlər, qəbul edilən qərarlar barədə məlumatları əldə etmək, habelə onlayn rejimdə müraciət edib cavab almaq imkanı yaradır. Məhkəmələrdə baxılan işlərin və yekun məhkəmə aktlarının hazırda formalaşdırılan elektron informasiya bazası da portalda yerləşdiriləcəkdir.

31. Eyni zamanda, Azərbaycan Respublikası Prezidentinin 6 fevral 2009-cu il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan ədliyyəsinin inkişafına dair 2009-2013-cü illər üçün Dövlət Proqramı"na uyğun olaraq ədliyyə və məhkəmə infrastrukturunun müasirləşdirilməsi, maddi-texniki təchizatın gücləndirilməsi, fəaliyyətdə yeni texnologiyaların tətbiqi, vətəndaşların bu təsisatlara müraciət imkanlarının asanlaşdırılması və digər sahələr üzrə məqsədyönlü işlər görülmüşdür. Hazırda 2014-2020-ci illəri əhatə edən yeni Dövlət Proqramının hazırlanması üzrə işlər aparılır.

32. Yekun icmalın 9-cu bəndində əks olunmuş ayrı-seçkiliklə bağlı şikayətlərin az olmasının səbəbi ilə əlaqədar qeyd etmək lazımdır ki, ayrı-seçkiliklə bağlı şikayətlərin çox az sayda olması yekun icmalda ölkəmizdə effektiv hüquq müdafiə vasitələrinin çatışmazlığı, qurbanların öz hüquqların bilməməsi, qisas qorxusunun mövcudluğu, hüquq mühafizə orqanlarına inamsızlıq və ya irqi ayrı-seçkilik hallarına bu orqanlarının diqqətsizliyi, yaxud həssas yanaşmaması kimi qiymətləndirilməməlidir. Əksinə belə göstəricilər tolerant ölkə olan Azərbaycan üçün bu cür halların xarakterik olmadığına dəlalət edir. Həmçinin aparılan profilaktik işlərin və hüquqi maarifləndirmə tədbirlərinin də müsbət nəticəsidir. Ədliyyə Nazirliyi tərəfindən 2009-2013-cü illər ərzində ümumilikdə 10400-dən artıq hüquqi maarifləndirmə tədbiri həyata keçirilərək kütləvi informasiya vasitələrində çıxışlar edilmiş, yazılar dərc olunmuş, müxtəlif tədbirlərdə iştirak edilmişdir.

33. Bu sahədə məhkəmə statistikası ilə əlaqədar nəzərə alınmalıdır ki, 2009-2013-cü ilin 6 ayı ərzində Cinayət Məcəlləsinin 103-cü (soyqırım), 105-ci (əhalini məhv etmə), 109-cu (təqib), 111-ci (irqi-ayrıseçkilik (aparteid)), 154-cü (bərabərlik hüququnu pozma) maddələri ilə heç kim məhkum olunmamışdır. Sözügedən Məcəllənin 283-cü (milli, irqi, sosial və ya dini nifrət və düşmənçiliyin salınması) maddəsi ilə həmin dövrdə cəmi 1 şəxs məhkum olunmuşdur.

34. Yekun icmalın 15-ci bəndində qeyd olunmuş Azərbaycanda yaşayan ermənilərə qarşı düşmənçilik halları ilə bağlı bildiririk ki, Azərbaycan Respublikası milliyyətindən asılı olmadan bütün Azərbaycan vətəndaşlarının, o cümlədən də Azərbaycan Respublikası vətəndaşları olan etnik ermənilərin Azərbaycan Respublikasının Konstitusiyasında və digər qanunlarında, habelə beynəlxalq hüquq normalarında təsbit edilmiş insan hüquq və azadlıqlarının həyata keçirilməsini təmin edir. Azərbaycan Respublikasında yaşayan etnik azlıqlarla digər vətəndaşlar arasında hər hansı fərqin qoyulması qanunvericiliklə qadağan olunmuşdur. İddia olunan düşmənçilik hallarına qarşı hüquq mühafizə

tədbirlərinin görülməməsi ilə əlaqədar bildiririk ki, cinayət təqibi üzrə cinayət işinin başlanması üçün müvafiq səbəb və əsaslar olmalıdır. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin (AR CPM) 46.2-ci maddəsinə əsasən cinayət işinin başlanması üçün səbəb kimi törədilmiş və ya hazırlanan cinayət haqqında fiziki şəxs tərəfindən verilən ərizə, hüquqi şəxsin (vəzifəli şəxsin) və ya kütləvi informasiya vasitəsinin məlumatları, yaxud bu məlumatların təhqiqatçı, müstəntiq və ya prokuror tərəfindən bilavasitə aşkar edilməsi ola bilər.

35. Habelə qeyd edirik ki, AR CPM-nin 11.2-ci maddəsinə əsasən, cinayət prosesini həyata keçirən orqanlar cinayət prosesində iştirak edən şəxslərdən hər hansı birinə vətəndaşlıq, sosial, cinsi, irqi, milli, siyasi və dini mənsubiyyətindən, dilindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, yaşayış yerindən və olduğu yerdən asılı olmayaraq və qanunla əsaslandırılmamış digər mülahizələrə görə üstünlük vermir.

36. Azərbaycan Respublikasının cinayət və cinayət-prosessual qanunvericiliyi Azərbaycan Respublikasının bütün ərazisinə və Azərbaycan Respublikasının vətəndaşlarına, habelə Azərbaycan Respublikasının ərazisində yaşayan xarici dövlətin vətəndaşlarına və vətəndaşlığı olmayan şəxslərə eyni dərəcədə şamil olunur. Azərbaycan Respublikası ərazisində yaşayan bütün yerli etnik azlıqların nümayəndələri, o cümlədən etnik ermənilər Azərbaycan Respublikasının vətəndaşlarıdırlar və onlar arasında hər hansı fərqin qoyulması, yaxud imtiyazların müəyyənləşdirilməsi qanunvericiliklə qadağan edilir.

37. Bundan əlavə qeyd etmək lazımdır ki, sözügedən tövsiyədə öz əksini tapmış əsaslılığı yoxlanılmamış iddialar Ermənistan tərəfindən işğal olunmuş Azərbaycan Respublikasının ərazilərinin azad edilməsinə və qaçqınların və məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtmasına xələl gətirir.

38. Yekun icmalın 18-ci bəndində qeyd olunmuş indiyə qədər ratifikasiya olunmamış beynəlxalq insan hüquqları sazişlərinin, xüsusilə də irqi ayrı-seçkiliklə bağlı müddəaların ratifikasiya ilə bağlı qeyd edirik ki, son illərdə Azərbaycan Respublikası BMT-nin "İşgəncələrə və digər qəddar, qeyri-insani yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinə qarşı Konvensiya"sının Fakültativ Protokoluna, "Mədəni özünüifadə müxtəlifliyinin qorunması və təşviqi haqqında" YUNESKO Konvensiyasına, Avropa Şurasının "İnsan alverinə qarşı mübarizə haqqında", habelə Beynəlxalq Əmək Təşkilatının "Kişi və qadın işçilər - ailə vəzifələri olan işçilər üçün bərabər imkanlar və bərabər rəftar haqqında" 156 nömrəli və "Analığın mühafizəsi haqqında 1952-ci il Konvensiyasına yenidən baxılması haqqında" 183 nömrəli Konvensiyalarına qoşulmuşdur.

39. İrqi ayrı-seçkiliklə mübarizə və qarşılıqlı anlaşmanın gücləndirilməsi məqsədi ilə Azərbaycan Respublikası Hökuməti vətəndaş cəmiyyəti institutlarının layihələrinin həyata keçirilməsi dəstək verir. Azərbaycan Respublikası beşinci və altıncı birgə məruzələrindən sonra qaçqın və məcburi köçkünlər, əlillər və etnik azlıqların hüquqlarının qorunması və onlara qarşı ayrı-seçkilik hallarının aradan qaldırılması, qeyd olunan qrup şəxslərin öz hüquqları ilə bağlı maarifləndirilməsi məqsədi ilə bir sıra tədbir və layihələri maliyyələşdirmişdir. Bu sahədə Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası (bundan sonra Dövlət Dəstəyi Şurası) tərəfindən qaçqın-məcburi köçkün və əlillərin sosial problemləri ilə bağlı 2008-ci ildə 15 layihə maliyyələşdirmiş, bu layihələrə 92000 manat maliyyə vəsaiti ayrılmış, 2009-ci ildə 16 layihə maliyyələşdirmiş və 124720 manat maliyyə vəsaiti ayrılmış, 2010-cu ildə 31 layihə maliyyələşdirmişdir və 217000 manat maliyyə

vəsaiti ayrılmış, 2011-ci ildə 28 layihə maliyyələşdirmiş və 159200 manat maliyyə vəsaiti ayrılmış, 2012-ci ildə 24 layihə maliyyələşdirmiş və 145000 manat maliyyə vəsaiti ayrılmış, 2013-cü ildə 54 layihə maliyyələşdirmiş və bu layihələrə 308200 manat maliyyə vəsaiti ayrılmışdır.

## Maddə 3

40. Cəmiyyətin bütövlüyünün qorunması dövlətin əsas prioritetlərindəndir. Bu mənada, Azərbaycan Respublikası Hökuməti müxtəlif qruplara mənsub insanların ayrı-seçkiliyə məruz qalmadan birgə yaşamalarını qarşıya məqsəd qoymuşdur.

41. Qeyd edirik ki, şəxsin milliyyətindən, irqindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olaraq hüquq və qanuni mənafelərinə zərər vurmağa görə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 109-cu (təqib), 111-ci (irqi ayrı-seçkilik (aparteid), 154-cü (bərabərlik hüququnu pozma), 283-cü (milli, irqi və ya dini düşmənçiliyin salınması) maddələrində məsuliyyət nəzərdə tutulur.

42. Cinayət Məcəlləsinin 111-ci maddəsi barədə məlumat Azərbaycan Respublikasının beşinci və altıncı birgə məruzəsinin 40-cı paraqrafında qeyd olunmuşdur.

43. Qeyd olunanlarla yanaşı, "Polis haqqında" Qanunun 5-ci maddəsində "Polis öz vəzifəsini yerinə yetirərkən irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənsubiyyətindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq, bütün şəxslərin Azərbaycan Respublikasının Konstitusiyasında və tərəfdar çıxdığı dövlətlərarası müqavilələrdə nəzərdə tutulmuş hüquqlarını və qanuni mənafelərini hüquqazidd əməllərdən qoruyur" müddəası təsbit olunmuşdur.

## Maddə 4

44. Azərbaycan Respublikası Konstitusiyanın 47-ci maddəsinin 3-cü hissəsinə əsasən irqi, milli, dini, sosial ədavət və düşmənçilik oyadan təşviqat və təbliğata yol verilmir.

45. Cinayət Məcəlləsinin 283-cü maddəsi (milli, irqi, sosial və ya dini nifrət və düşmənçiliyin salınması) dövlət hakimiyyəti əleyhinə olan cinayət kimi qiymətləndirilir. Sözügedən maddəyə əsasən milli, irqi, sosial və ya dini düşmənçiliyin salınmasına, milli ləyaqətin alçaldılmasına, habelə milli, irqi, sosial və ya dini mənsubiyyətindən asılı olaraq vətəndaşların hüquqlarının məhdudlaşdırılmasına və ya üstünlüklərinin müəyyən edilməsinə yönələn hərəkətlər, aşkar surətdə və ya kütləvi informasiya vasitələrindən istifadə olunmaqla törədildikdə *min manatdan iki min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya iki ildən dörd ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.* Eyni əməllər zor tətbiq etməklə və ya zor tətbiq etmə hədəsi ilə törədildikdə, şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə, mütəşəkkil dəstə tərəfindən törədildikdə *üç ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.*

46. Azərbaycan Respublikası Prezidentinin 25 avqust 2000-ci il tarixli 387 nömrəli Fərmanının 3-cü bəndinin 2-ci hissəsinə əsasən AR CM-nin 283-cü maddəsi (milli, irqi,

sosial və ya dini nifrət və düşmənçiliyin salınması) üzrə ibtidai istintaqın aparılması səlahiyyəti Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyinə həvalə olunmuşdur.

47. 2009-cu il avqust - 2013-cü il avqust tarixləri ərzində AR CM-nin 283-cü maddəsi üzrə MTN İstintaq Baş İdarəsinin icraatında cəmi bir cinayət işi olmuşdur (Süleymanov Abgül Neymət oğlunun təqsirləndirilməsinə dair). Həmin şəxs dini məclisdə iştirak edən kütlə qarşısında, aşkar surətdə məzmunu milli, irqi, sosial və ya dini nifrət və düşmənçiliyin salınması ilə ifadə olunan, habelə milli, sosial və ya dini mənsubiyyətindən asılı olaraq vətəndaşların hüquqlarının məhdudlaşdırılmasına və ya üstünlüklərin müəyyən edilməsinə yönələn çıxış edərək, dindarları ictimai qaydanın kobud surətdə pozulması ilə nəticələnən hərəkətlərin törədilməsinə təhrik etmiş, özü də həmin hərəkətlərdə fəal iştirak etmişdir. Məhkəmə tərəfindən Süleymanov Abgül Neymət oğlu AR CM-nin 283-cü maddəsi üzrə təqsirli bilinərək azadlıqdan məhrum etmə cəzasına məhkum edilmişdir.

48. Eyni zamanda "Kütləvi informasiya vasitələri haqqında" Qanunun 10-cu maddəsinə əsasən milli, irqi, sosial ədavəti, yaxud dözülməzliyi təbliğ etmək məqsədilə kütləvi informasiya vasitələrindən istifadə olunmasına yol verilmir.

49. "İctimai televiziya və radio yayımı haqqında" Qanunun 7.0.7-ci maddəsinə uyğun olaraq dini və irqi ayrı-seçkiliyi təbliğ edən proqramların yayımlanmaması ictimai yayımçının vəzifəsi kimi müəyyən olunmuşdur. "Televiziya və radio yayımı haqqında" Qanunun 11.5-ci maddəsinə müvafiq olaraq teleradio yayımı sahəsində Milli Televiziya və Radio Şurası belə təbliğatın yol verilməməsinə nəzarət edir.

50. İrqi ayrı-seçkiliyi təşviq edən və təhrik edən qurumların qadağan olunması ilə bağlı bildirilir ki, "Siyasi partiyalar haqqında" Qanunun 4-cü maddəsində və "Həmkarlar ittifaqları haqqında" Qanunun 8-ci maddəsində məqsədi və ya fəaliyyəti irqi, milli və dini ədavəti qızışdırmağa yönəlmiş siyasi partiyaların, habelə həmkarlar ittifaqları təşkilatlarının yaradılmasına və fəaliyyətinə yol verilməməsi təsbit edilmişdir.

51. "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" Qanunun 2.3-cü maddəsinə uyğun olaraq qeyri-hökumət təşkilatı Azərbaycan Respublikasının Konstitusiyası və qanunları ilə qadağan olunmamış məqsədlər üçün yaradıla və fəaliyyət göstərə bilər.

52. İrqi ayrı-seçkiliklə əlaqədar qanunvericilik təhlil edilərkən, Azərbaycan Respublikasının 24 iyun 2008-ci il tarixli Qanununun da qeyd olunması məqsədəmüvafiqdir. Həmin Qanunla Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin 86.3-cü maddəsinin redaksiyası dəyişdirilərək, aşağıdakı kimi müəyyən edilmişdir: "86.3. Məhkumların müharibəni, zorakılığı, ekstremizmi, terroru və qəddarlığı təbliğ edən, milli, dini və irqi ədavəti qızışdıran, habelə pornoqrafiya xarakterli nəşrləri əldə etməsi, saxlaması, onlara abunə yazılması və onları yayması qadağandır".

53. Bununla əlaqədar olaraq, 30 dekabr 2010-cu il tarixli cəzaçəkmə müəssisələrinin daxili intizam qaydalarında da irqi ayrı-seçkiliklə əlaqədar müvafiq müddəalar nəzərdə tutulmuşdur. Qaydaların 61-ci fəslinin 273-cü bəndinə əsasən, məhkumların müharibəni, zorakılığı, ekstremizmi, terrorçuluğu və qəddarlığı təbliğ edən, milli, dini və irqi ədavəti qızışdıran, habelə pornoqrafiya xarakterli nəşrləri əldə etməsi, saxlaması, onlara abunə yazılması və onları yayması qadağan olunmuşdur. Həmçinin qaydalara əsasən, cəzaçəkmə müəssisələrində məhkumlara verilməsi və ya ötürülməsi, habelə

onlar tərəfindən hazırlanması, saxlanılması, gəzdirilməsi, daşınması və ya istifadəsi qadağan olunmuş əşyaların siyahısında müharibəni, zorakılığı, ekstremizmi, terroru və qəddarlığı təbliğ edən, milli, dini və irqi ədavəti qızışdıran, habelə pornoqrafiya xarakterli nəşrlər, audio-video daşıyıcıları da təsbit edilmişdir.

54. Bundan əlavə, Azərbaycan Respublikasının "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" 22 may 2012-ci il tarixli Qanununun 23.2-ci maddəsinə əsasən, tutulmuş şəxslərə müharibəni, zorakılığı, ekstremizmi, terroru və qəddarlığı təbliğ edən, irqi, milli, dini, sosial ədavət və düşmənçilik oyadan, habelə pornoqrafiya xarakterli nəşrlər əldə etmək, saxlamaq və ya onları yaymaq, həbs edilmiş şəxslərə isə bütün bunlarla yanaşı, həm də belə nəşrlərə abunə yazılmaq qadağandır.

## Maddə 5

### A. Məhkəmə qarşısında bərabərlik

55. Hər kəsin qanun və məhkəmə qarşısında hüquq bərabərliyi Konstitusiyada, Cinayət-Prosessual, Mülki Prosessual, İnzibati Prosessual məcəllələrdə təsbit edilmişdir.

56. Azərbaycan Respublikası Konstitusiyasının 69-cu maddəsinə əsasən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasında olarkən, qanunla və ya Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə başqa hal nəzərdə tutulmayıbsa, Azərbaycan Respublikasının vətəndaşları ilə bərabər bütün hüquqlardan istifadə edə bilərlər. Onlar sosial və əmlak vəziyyətindən, irqi və milli mənsubiyyətindən, cinsindən, dilindən, dinə münasibətindən, fəaliyyətinin növündən, xarakterindən və digər hallardan asılı olmayaraq, Azərbaycan Respublikasında qanun və məhkəmə qarşısında bərabər hüquqludurlar.

57. "Məhkəmələr və hakimlər haqqında" Qanunun 7-ci maddəsində göstərilir ki, Konstitusiyanın 25-ci maddəsinə uyğun olaraq Azərbaycan Respublikasında ədalət mühakiməsi irqindən, milliyyətindən, dinindən, dilindən, mənşəyindən və qanunla nəzərdə tutulmuş digər əsaslardan asılı olmayaraq hər bir şəxsin qanun və məhkəmə qarşısında hüquq bərabərliyi əsasında həyata keçirilir.

58. "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsinə əsasən, Azərbaycan Respublikası vətəndaşlarının, onun ərazisində yaşayan xarici vətəndaşların, habelə vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının Konstitusiyasında və digər qanunlarda nəzərdə tutulmuş hüquq və azadlıqlarının, hüquqi şəxslərin qanuni mənafelərinin hər cür qəsdlərdən və qanun pozuntularından məhkəmə icraatının istənilən mərhələsində məhkəmə müdafiəsi hüququ təmin olunur. Heç kəs məhkəmə müdafiəsi hüququndan məhrum edilə bilməz. Şübhə edilən, təqsirləndirilən şəxsin Azərbaycan Respublikası qanunvericiliyində nəzərdə tutulmuş vasitələrlə müdafiə hüququna, o cümlədən tutulduğu, həbsə alındığı, cinayət törədilməsində ittiham olunduğu andan müdafiəçinin köməyindən istifadə etmək hüququna təminat verilir. Azərbaycan Respublikası Konstitusiyasının 61-ci maddəsinin 2-ci hissəsinə uyğun olaraq, qanunla nəzərdə tutulmuş hallarda hüquqi yardım ödənişsiz, dövlət hesabına göstərilir.

59. Azərbaycan Respublikasında qaçqınlar və qaçqın statusu verilməsindən imtina edilmiş şəxslər pozulmuş hüquqlarının müdafiəsi üçün məhkəmə orqanlarına müraciət etmək hüququna malikdirlər. Bu, "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində

köçürülmüş şəxslərin) statusu haqqında" Qanunun 6-cı və 13-cü maddələrində, eləcə də "Qaçqın" statusu verilməsi haqqında vəsatətə baxılması Qaydası"nın 4-cü və 13-cü bəndlərində öz əksini tapmışdır.

**B. Şəxsiyyətin təhlükəsizliyi**

60. Konstitusiyanın 31-ci maddəsinə əsasən hər kəsin təhlükəsiz yaşamaq hüququ vardır. Qanunla nəzərdə tutulmuş hallar istisna olmaqla, şəxsin həyatına, fiziki və mənəvi sağlamlığına qəsd etmək, ona qarşı zor işlətmək qadağandır.

61. Cinayət Məcəlləsinin 111.0.1-ci maddəsində irqi qrupa və ya qruplara mənsub olan şəxslərin yaşamaq və azadlıq hüquqlarını inkar etməyə görə cinayət məsuliyyəti nəzərdə tutulmuşdur.

62. Bu Konvensiya ilə müdafiə olunan qrupların təhlükəsiz yaşamaq hüquqlarının təmin edilməsinin yollarından biri də bu qrup şəxslərin hüquq mühafizə, xüsusi ilə də polis orqanlarında işlə təmin olunmasıdır. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq irqindən, milliyyətindən, dilindən və dinindən asılı olmayaraq müvafiq vəzifənin tələblərinə uyğun peşə hazırlığına malik olan vətəndaşlar dövlət qulluğuna, o cümlədən dövlət qulluğunun xüsusi növü olan daxili işlər orqanlarında xidmətə qəbul olunurlar.

63. Azərbaycanda əhalinin 8,5%-i, daxili işlər orqanlarında isə şəxsi heyətin 11,4%-i milli azlıqların nümayəndələrindən ibarətdir. Ölkə əhalisinin 1,2%-ni təşkil edən talışlar daxili işlər orqanları əməkdaşlarının 6%-ni, 0,06%-ni təşkil edən kürdlər daxili işlər orqanları əməkdaşlarının 1%-ni, 2%-ni təşkil edən ləzgilər daxili işlər orqanları əməkdaşlarının 2,5%-ni, 1,3%-ni təşkil edən ruslar daxili işlər orqanları əməkdaşlarının 0,8%-ni, 0,5%-ni təşkil edən avarlar daxili işlər orqanları əməkdaşlarının 0,6%-ni, 1,5%-ni təşkil edən yəhudi, tat, gürcü, ingiloy, saxur, lak, udin və başqa milli azlıqlar isə daxili işlər orqanları əməkdaşlarının 0,5%-ni təmsil edirlər.

64. Məhkəmə sistemində də milli azlıqlar təmsil olunurlar. Hazırda milli azlıqları təmsil edən 20-ə qədər hakim Azərbaycan Respublikasının müxtəlif məhkəmələrində, o cümlədən apelyasiya məhkəmələrində, kassasiya instansiyası olan Ali Məhkəmədə, həmçinin ali konstitusiya ədalət mühakiməsi orqanı olan Konstitusiya Məhkəməsində fəaliyyət göstərirlər. Eyni zamanda qeyd olunmalıdır ki, məhkəmə hakimiyyətinin özünüidarə orqanı olan Məhkəmə-Hüquq Şurasının üzvləri sırasına milli azlığın nümayəndəsi olan hakim də təyin edilmişdir.

65. Ədliyyə orqanlarında isə milli azlıqların qadınlar da daxil olmaqla müxtəlif millətlərdən olan 150-dək nümayəndəsi çalışır, onlar Ədliyyə Nazirliyinin aparatında və digər qurumlarında, o cümlədən rəhbər vəzifələrdə təmsil olunurlar.

66. Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin xarici ölkəyə verilməsi məsələsi ilə bağlı nəzərə alınmalıdır ki, "Cinayət törətmiş şəxslərin verilməsi (ekstradisiya) haqqında" Qanuna əsasən verilməsi sorğu edilən şəxsin sorğu edən dövlətdə işgəncələrə, yaxud qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftara, yaxud cəzaya məruz qalacağını güman etməyə kifayət qədər əsaslar olduqda şəxsin verilməsindən imtina edilir. Ekstradisiya ilə bağlı sorğu daxil olduqda, sorğu edən dövlət haqqında informasiya, o cümlədən həmin dövlətdə işgəncələrin, yaxud qəddar rəftarın tətbiq edilməsi faktlarının mövcudluğu barədə məlumatlar toplanır, beynəlxalq hüquq müdafiə təşkilatlarının

hesabat və rəyləri öyrənilir. Şəxsin verilməsi məsələsinə Ağır cinayətlər məhkəməsində kollegial tərkibdə baxılır və məhkəmənin qərarından qanunvericiliklə müəyyən edilmiş qaydada şikayət verilə bilər. Bu zaman şəxslərin müdafiə hüququnun təmin olunmasına xüsusi diqqət yetirilir.

## C. Siyasi hüquqlar

67. Seçki Məcəlləsinin 3-cü maddəsinə əsasən irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən və qanunla nəzərdə tutulmuş digər əsaslardan asılı olmayaraq Azərbaycan Respublikası vətəndaşlarının seçmək, seçilmək və referendumda iştirak etmək hüququ vardır.

68. "Yerli rəy sorğusu haqqında" Qanunun 6-cı maddəsinə uyğun olaraq yuxarıda göstərilən əsaslardan asılı olmayaraq vətəndaşların yerli rəy sorğusunda birbaşa və ya dolayısı ilə iştirak etmək hüququnun məhdudlaşdırılması qadağandır.

69. Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin seçki hüquqları Azərbaycan Respublikasının Seçki Məcəlləsində öz əksini tapmışdır. Belə ki, Seçki Məcəlləsinin 12-ci maddəsinin 3-cü hissəsinə əsasən müvafiq bələdiyyənin ərazisində 5 ildən az olmayaraq yaşayan xarici ölkənin vətəndaşları bələdiyyə seçkiləri zamanı səsvermədə iştirak edə bilərlər (o şərtlə ki, onların vətəndaşı olduqları dövlətlərdə əcnəbilərin bələdiyyələrə seçkilər zamanı eyni hüquqları tanınmış olsun).

70. Seçki Məcəlləsinin 88.2-ci Maddəsinə əsasən, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə uyğun olaraq, seçkiqabağı təşviqat aparılarkən kütləvi informasiya vasitələrindən sosial, irqi, milli, dini nifrət və düşmənçilik yaradan təşviqat formasında sui-istifadə qadağandır. Ümumiyyətlə, Azərbaycan Respublikasında indiyədək keçirilən seçkilərdə müxtəlif seçki subyektlərinin hüquqlarının mənsub olduğu irqə görə hansısa şəkildə məhdudlaşdırılması olmamışdır.

71. "Siyasi partiyalar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 20 aprel 2012-ci il tarixli Qanunu ilə siyasi partiyaya üzvlüyün peşə, irqi, cinsi, etnik və dini əlamətlərə görə məhdudlaşdırıla bilməməsi, habelə məqsədi və ya fəaliyyəti Azərbaycan Respublikasının Konstitusiya quruluşunu və dünyəvi xarakterini zorakılıqla dəyişdirməyə, ərazi bütövlüyünü pozmağa, müharibəni, zorakılığı və qəddarlığı təbliğ etməyə, irqi, milli və dini ədavəti qızışdırmağa yönəlmiş siyasi partiyaların yaradılmasına və fəaliyyətinə yol verilməməsi təsbit olunmuşdur.

72. Yekun icmalın 12-ci bəndində müxtəlif etnik qrupların nümayəndələrinin parlament və digər seçkili və dövlət qurumlarında təmsil olunmasının təşviqi tövsiyə olunmuşdur. Bununla bağlı bildiririk ki, irqindən, milliyyətindən, dinindən, dilindən və digər əsaslardan asılı olmayaraq vətəndaşların dövlət qulluğuna qəbul edilmək hüququ vardır. "Dövlət qulluğu haqqında" Qanunun 27-ci, "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Qanunun isə 4-cü maddələrində irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, sosial mənşəyindən, əmlak vəziyyətindən, yaşayış yerindən, əqidəsindən, ictimai və digər birliklərə mənsubiyyətindən asılı olmayaraq müvafiq vəzifənin tələblərinə uyğun peşə hazırlığına malik olan və Azərbaycan Respublikasının dövlət dilini sərbəst bilən vətəndaşların qulluğa qəbul edilmək hüququ təsbit olunmuşdur.

## D. Digər mülki hüquqlar

73. Konstitusiyanın 28-ci maddəsinin 3-cü hissəsinə əsasən qanuni surətdə Azərbaycan Respublikasının ərazisində olan hər kəs sərbəst hərəkət edə bilər, özünə yaşayış yeri seçə bilər və Azərbaycan Respublikasının ərazisindən kənara gedə bilər.

74. 2013-cü ildə Azərbaycan Respublikasında daimi yaşama icazəsi verilmiş əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin mənsub olduğu, həmçinin Azərbaycan Respublikası vətəndaşlarının daimi yaşamağa getdikləri ölkələr haqqında statistik məlumatlar aşağıdakı kimidir.

**2013-cü il ərzində Azərbaycan Respublikasında daimi yaşama icazəsi verilmiş əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin mənsub olduğu ölkələr üzrə statistik məlumat**

| **Ölkə adı** | **Ümumi say** | **Qadın** | **Kişi** |
|---|---|---|---|
| Mərakeş | 2 | | 2 |
| Əfqanıstan | 18 | 1 | 17 |
| Ermənistan | 1 | 1 | |
| Avstriya | 1 | 1 | |
| Banqladeş | 1 | | 1 |
| Belarus | 21 | 14 | 7 |
| Çin | 2 | | 2 |
| Konqo Respublikası | 1 | | 1 |
| AFR | 8 | 2 | 6 |
| Əlcəzair | 1 | | 1 |
| Misir | 3 | 1 | 2 |
| Estoniya | 3 | 3 | |
| Finlandiya | 1 | 1 | |
| Fransa | 1 | | 1 |
| Birləşmiş Krallıq | 24 | 6 | 18 |
| Gürcüstan | 696 | 422 | 274 |
| Yunanıstan | 1 | | 1 |
| İndoneziya | 1 | | 1 |
| Hindistan | 7 | 1 | 6 |
| İrlandiya | 1 | | 1 |
| İran | 120 | 14 | 106 |
| İsrail | 6 | 4 | 2 |
| İtaliya | 2 | | 2 |
| İordaniya | 1 | | 1 |
| Qazaxıstan | 130 | 73 | 57 |
| Qırğızıstan | 42 | 26 | 16 |
| Litva | 9 | 4 | 5 |
| Latviya | 7 | 4 | 3 |
| Moldova | 16 | 12 | 4 |
| Makedoniya | 2 | 2 | |
| Nigeriya | 2 | | 2 |
| Niderland | 1 | | 1 |
| Norveç | 4 | 2 | 2 |

| | | | |
|---|---|---|---|
| Yeni Zellandiya | 2 | | 2 |
| Pakistan | 45 | 5 | 40 |
| Filippin | 1 | | 1 |
| Polşa | 1 | | 1 |
| Portuqaliya | 1 | | 1 |
| Fələstin | 3 | | 3 |
| Rusiya | 1098 | 658 | 440 |
| İsveç | 2 | | 2 |
| Suriya | 4 | 1 | 3 |
| Tacikistan | 4 | 3 | 1 |
| Türkmənistan | 91 | 65 | 26 |
| Tunis | 1 | 1 | |
| Türkiyə | 398 | 36 | 362 |
| Ukrayna | 173 | 94 | 79 |
| ABŞ | 7 | 1 | 6 |
| Özbəkistan | 93 | 59 | 34 |
| VOŞ | 60 | 27 | 33 |
| Digər ölkələr | 5 | 1 | 4 |
| **Cəmi:** | **3125** | **1545** | **1580** |

2013-cü ildə Azərbaycan Respublikası vətəndaşlarının daimi yaşamağa getdikləri ölkələr haqqında statistik məlumat

| **Ölkənin adı** | **Müraciətlər** |
|---|---|
| AFR | 1 |
| Avstraliya Birliyi | 2 |
| Belarus Respublikası | 9 |
| Çexiya | 1 |
| Finlandiya | 3 |
| Fransa | 1 |
| Gürcüstan | 1 |
| İsrail | 6 |
| Kanada | 6 |
| Özbəkistan | 1 |
| Qazaxıstan Respublikası | 59 |
| Rusiya Federasiyası | 289 |
| Türkiyə Respublikası | 1 |
| Ukrayna | 20 |
| Digər ölkələr | 15 |
| **cəmi:** | **415** |

75. Qeyd olunduğu kimi dini etiqad azadlığı Azərbaycan Respublikasının Konstitusiyası ilə mühafizə olunur. Hesabat dövrü ərzində "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununa əlavələr və dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 8 may 2009-cu il tarixli Qanunu ilə qeyd olunan Qanunun 1-ci

maddəsinə dini etiqadın və dini həyat tərzinin zor tətbiq etməklə və ya zor tətbiq ediləcəyi ilə hədələməklə, habelə irqi, milli, dini, sosial ədavət və düşmənçilik yaratmaq məqsədi ilə təbliğinə yol verilməməsinə dair müddəalar əlavə edilmiş, habelə 12-1-ci maddəyə əsasən, irqi, milli, dini, sosial ədavət və ya düşmənçilik yaratmaq məqsədi ilə təbliğ edilməsi, dini etiqadı ifadə etməyə (nümayiş etdirməyə), dini mərasimləri yerinə yetirməyə və ya dini mərasimlərdə iştirak etməyə məcbur etmə, insan ləyaqətini alçaldan və ya insanpərvərlik prinsiplərinə zidd olan dinin (dini cərəyanın) yayılması və təbliğ edilməsi dini qurumun məhkəmə qaydasında ləğv edilməsi əsaslarına aid edilmişdir.

76. Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin 21 oktyabr 2009-cu il tarixli 10 nömrəli əmri ilə təsdiq edilmiş "Dini təyinatlı ədəbiyyatın, əşyaların və dini məzmunlu başqa məlumat materiallarının satışı ilə bağlı ixtisaslaşdırılmış satış məntəqələrinin yaradılması ilə əlaqədar razılığın verilməsi qaydaları haqqında Təlimat"ın 14.2-ci bədinə əsasən, ixtisaslaşdırılmış satış məntəqələrində satılan dini təyinatlı ədəbiyyatda, əşyalarda və dini məzmunlu başqa məlumat materiallarında dini etiqadın və dini həyat tərzinin zor tətbiq edilməsi, habelə irqi, milli, dini, sosial ədavət və ya düşmənçilik yaradan məlumatlar əks olunduqda dini təyinatlı ədəbiyyatın, əşyaların və dini məzmunlu başqa məlumat materiallarının ixtisaslaşdırılmış satış məntəqələri vasitəsilə satışının həyata keçirilməsinə razılıq verilməsinə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən imtina edilə bilər.

77. Qeyd olunan Komitənin 28 yanvar 2010-cu il tarixli əmri ilə təsdiq edilmiş "Dini ibadət yerinin tikintisinin və mövcud dini ibadət yerinin yenidən qurulmasının (bərpasının, əsaslı təmirinin) məqsədəuyğunluğu barədə rəy verilməsi haqqında Təlimat"ın 12.3-cü bəndinə əsasən, dini ibadət yerinin tikintisinin və mövcud dini ibadət yerinin yenidən qurulmasının (bərpasının, əsaslı təmirinin) irqi, milli, dini, sosial ədavət və ya düşmənçilik yarada biləcəyi ehtimal olunduqda dini ibadət yerinin tikintisinin və mövcud dini ibadət yerinin qurulmasının (bərpasının, əsaslı təmirinin) məqsədəuyğunluğu barədə müsbət rəyin verilməsinə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən imtina edilə bilər.

78. Yekun icmalın 10-cu bəndində qeyd olunan Cinayət Məcəlləsinin təhqir, böhtan və milli, irqi, sosial və ya dini nifrət və düşmənçiliyin salınması ilə bağlı müddəalarının bir neçə jurnalistin həbs olunması üçün tətbiq edilməsi barədə məsələ ilə əlaqədar bildiririk ki, Azərbaycan Respublikasında irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən və ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq heç kəs, o cümlədən jurnalistlər qanuni əsas olmadan həbs edilmir, fiziki və ya psixoloji təzyiqlərə məruz qalmır. Belə ki, ölkə qanunvericiliyinə əsasən kütləvi informasiya, o cümlədən internet azaddır və bu azadlıqdan sui-istifadəyə, o cümlədən mötəbər mənbə adı altında vətəndaşların şərəf və ləyaqətini alçaldan şayiələr, yalan və qərəzli yazılar, böhtan atmaq, yaxud digər qanunazidd əməllər törətmək məqsədi ilə kütləvi informasiya vasitələrindən istifadə olunmasına yol verilmir.

79. Bununla belə qeyd olunmalıdır ki, 2011-ci ildə Cinayət Məcəlləsinin 147-ci (böhtan) və 148-ci (təhqir) maddələri ilə hər hansı media işçisi məhkum olunmamışdır. 2012-ci ildə isə cəmi 1 şəxs Cinayət Məcəlləsinin 147-ci maddəsi ilə cərimə cəzasına məhkum edilmişdir. Məcəllənin 283-cü (milli, irqi, sosial və ya dini nifrət və düşmənçiliyin salınması) maddəsi ilə isə hesabat dövründə cəmi 1 şəxs məhkum olunmuşdur.

80. “Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı”nın 1.2.7-ci bəndində diffamasiyaya görə cinayət məsuliyyətinin aradan qaldırılması məqsədilə qanunvericiliyin təkmilləşdirilməsi məsələsi qeyd olunmuşdur. Bu məqsədlə 2012-ci ildə diffamasiya haqqında qanun layihəsinin hazırlanmasında yardım göstərilməsi üçün Azərbaycan tərəfi Venesiya Komissiyasına müraciət etmiş və Komissiyanın ekspertləri ilə birgə müvafiq iş başlamışdır. 2013-cü ilin aprel ayında Venesiya Komissiyasının nümayəndə heyəti Azərbaycana səfər etmiş və qanun layihəsinin hazırlanması məqsədilə müvafiq görüşlər keçirmişdir. Qanun layihəsində diffamasiya ilə əlaqədar məhkəmə işlərinə baxılarkən İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququnda təsbit edilən prinsiplərin tətbiq edilməsi nəzərdə tutulur.

**Əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin hüquqları**

81. Azərbaycan Respublikası Miqrasiya Məcəlləsinin 3.0.2-ci maddəsi ilə vətəndaşlığı olmayan şəxsin anlayışı Vətəndaşsızlıq hallarının azaldılması haqqında 1954-cü il tarixli Konvensiyaya uyğunlaşdırılmışdır. Məcəllənin həmin maddəsinə əsasən vətəndaşlığı olmayan şəxs dedikdə heç bir dövlət tərəfindən onun qanununa əsasən vətəndaş hesab edilməyən şəxs başa düşülür.

82. Bütövlükdə Miqrasiya Məcəlləsinin tətbiq edilməsi bütün əcnəbi və vətəndaşlığı olmayan şəxslər üçün eynidir. Bununla belə, bəzi hallarda əcnəbi və vətəndaşlığı olmayan şəxslərlə bağlı fərqli qaydalar müəyyən olunmuşdur.

83. Azərbaycan Respublikası ərazisində yaşayan və ya müvəqqəti olan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquq və azadlıqları yalnız beynəlxalq hüquq normalarına və Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq məhdudlaşdırıla bilər.

84. Yuxarıda qeyd olunduğu kimi, Konstitusiyanın 28-ci maddəsinə əsasən hər bir Azərbaycan Respublikası vətəndaşı sərbəst şəkildə ölkəni tərk edə, xaricdə yaşaya və işləyə bilər. Miqrasiya Məcəlləsinə əsasən vətəndaş ölkədən getmək və ölkəyə gəlmək hüququndan məhrum edilə bilməz. Məcəlləyə əsasən Azərbaycan Respublikası vətəndaşının, eləcə də əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasından getmək hüququ yalnız Məcəllədə nəzərdə tutulmuş hallarda müvəqqəti məhdudlaşdırıla bilər.

85. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər qanunvericiliklə müəyyən olunmuş viza və ya vizasız qaydada Azərbaycan Respublikasına gələ bilirlər. 2008-2012-ci illərdə Dövlət Miqrasiya Xidmətində müvəqqəti olma müddətinin uzadılması, müvəqqəti və daimi yaşama, həmçinin fərdi icazənin alınması üçün əcnəbilər və vətəndaşlığı olmayan şəxslərdən daxil olmuş 212.448 müraciətdən 84%-nə müsbət cavab verilmiş, o cümlədən müvafiq sənədləri qaydasında olmayan 9662 şəxsin ölkədə yaşaması leqallaşdırılmışdır.

86. Miqrasiya Məcəlləsinə əsasən Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazə vəsiqəsi - irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, dərisinin rəngindən, milli və etnik mənşəyindən asılı olmayaraq əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazə və etibarlılıq müddətində Azərbaycan Respublikasından getmək və viza almadan Azərbaycan Respublikasına qayıtmaq hüququ verən, habelə həmin

şəxslərin ölkə ərazisində şəxsiyyətini və yaşayış yeri üzrə qeydiyyata alındığını təsdiq edən sənəddir. Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazə, ərizəçinin müraciətində göstərilən, lakin 1 ildən artıq olmayan müddətə verilir və müvafiq əsas olduqda, hər dəfə 2 ildən çox olmayan müddətə uzadıla bilər.

87. Miqrasiya Məcəlləsinin müvafiq maddələrində nəzərdə tutulmuş əsaslarla azı 2 il Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşayan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının ərazisində daimi yaşamaq icazəsi almaq üçün vəsatət verə bilərlər. Azərbaycan Respublikasının ərazisində daimi yaşamaq üçün icazə vəsiqəsi - əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının ərazisində daimi yaşamaq üçün icazə və etibarlılıq müddətində Azərbaycan Respublikasından getmək və viza almadan Azərbaycan Respublikasına qayıtmaq hüququ verən, habelə həmin şəxslərin ölkə ərazisində şəxsiyyətini və yaşayış yeri üzrə qeydiyyata alındığını təsdiq edən sənəddir.

88. Milli qanunvericilikdə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin şəxsiyyətini təsdiq edən sənədinin müsadirə olunması, həmçinin onların ölkə daxilində hərəkətinin məhdudlaşdırılması nəzərdə tutulmamışdır.

89. Eyni zamanda, Miqrasiya Məcəlləsində işə cəlb edilən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin pasportlarının və ya şəxsiyyətlərini təsdiq edən digər sənədlərinin hüquqi şəxslər, hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər və xarici hüquqi şəxslərin filial və nümayəndəlikləri tərəfindən götürülərək saxlanılması qadağandır. Məcəlləyə əsasən işə cəlb edilməsi məqsədi ilə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin pasportlarını və ya şəxsiyyəti təsdiq edən digər sənədlərini götürən, saxlayan və ya gizlədən şəxslər qanunla nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar. Belə ki, vətəndaşın şəxsiyyət vəsiqəsinin və pasportunun qanunsuz alınması və ya girov götürülməsi Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 332.1-ci maddəsi ilə müəyyən edilmiş inzibati məsuliyyətə səbəb olur (85-90 manat miqdarında cərimə).

90. Miqrasiya Məcəlləsinin 78-ci maddəsinə əsasən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər aşağıdakı hallarda Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarıla bilərlər:
- cinayət törədildiyinə görə Azərbaycan Respublikasının hüdudlarından kənara məcburi çıxarma cəzası təyin edildikdə;
- inzibati xəta törədildiyinə görə Azərbaycan Respublikasının hüdudlarından kənara inzibati qaydada çıxarma inzibati tənbeh tədbiri tətbiq edildikdə;
- Miqrasiya Məcəlləsinin 79-cu maddəsinə uyğun olaraq əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarılması haqqında qərar qəbul edildikdə.

91. Miqrasiya Məcəlləsinin 79-cu maddəsinə əsasən Dövlət Miqrasiya Xidməti aşağıda göstərilən hallarda əcnəbilər və vətəndaşlığı olmayan şəxslər barəsində kənara çıxarma haqqında qərar qəbul edir:
- vizası və ya müvəqqəti olma müddətinin uzadılması barədə qərarı, yaxud müvəqqəti və ya daimi yaşamaq üçün icazəsi ləğv edildikdə;
- Azərbaycan Respublikası ərazisində olması arzuolunmaz hesab edildikdə;
- cəza çəkməkdən azad edilmiş əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında yaşamaları üçün Miqrasiya Məcəlləsi ilə müəyyən edilmiş əsaslar olmadıqda.

92. Azərbaycan Respublikasında qaçqın statusu almış şəxs və onun ailə üzvləri müəyyənləşdirilmiş nümunədə qaçqın vəsiqələri ilə təmin olunmuşlar. Hazırda həmin şəxslər üçün elektron daşıyıcısı olan "Qaçqın vəsiqəsi"nin və ölkə hüdudlarından kənarda hərəkət etmələri üçün "Yol sənədi"nin yeni nümunələri hazırlanır.

93. Qaçqınlar Azərbaycan Respublikasının vətəndaşlığını "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Qanuna müvafiq olaraq əldə edə bilərlər. Qaçqın statusu almış şəxslərdən 2 nəfəri hesabat dövründə Azərbaycan Respublikasının vətəndaşlığına qəbul olunmuşdur. Qeyd etmək lazımdır ki, uzun müddət ölkə ərazisində yaşayan Əfqanıstan İslam Respublikası vətəndaşlarından bir qismi Azərbaycan Respublikasının vətəndaşlığına qəbul edilmiş, digər qisminə isə qanunvericiliklə müəyyən edilmiş qaydada yaşamaq üçün icazələr verilmişdir. Hazırda bu proses davam etməkdədir.

94. "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında" Azərbaycan Respublikası Qanunun 11-ci maddəsinə əsasən, qaçqın statusu verilməsi haqqında ərizə təqdim etmiş şəxslərin Azərbaycan Respublikası ərazisində müvəqqəti yaşamaq, tərcüməçinin xidmətlərindən pulsuz istifadə etmək, qaçqın statusu verilməsi məsələsi həll edilənədək, lakin ən çoxu üç ay müddətində müvəqqəti yerləşdirmə məntəqəsində verilmiş yaşayış yerindən pulsuz istifadə etmək, müvəqqəti işə düzəlmək, tibbi yardım almaq, öz dininə sərbəst etiqad etmək, BMT-nin qaçqınların işləri üzrə Ali Komissarının Nümayəndəsi ilə əlaqə saxlamaq və sair hüquqları təmin edilir.

95. Azərbaycan Respublikasına qaçqın statusu almaq niyyəti ilə gəlmiş əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin yaşamaq üçün yerləri olmadığı təqdirdə, onlar könüllü olaraq Dövlət Miqrasiya Xidmətinin Qanunsuz miqrantların saxlanılması mərkəzlərinin sığınacaq axtaran şəxslər üçün nəzərdə tutulmuş binasında yerləşdirilirlər. Mərkəzdə qaçqın statusu almaq niyyətində olan şəxslər və onların ailə üzvləri məişət avadanlıqları ilə təchiz edilmiş otaqlar, gün ərzində üç dəfə qidalanma və s. təmin edilir, onların Azərbaycan dilini öyrənmələrinə, asudə vaxtlarını maraqlı keçirmələrinə, idmanla məşğul olmalarına lazımi şərait yaradılır. Mərkəzə yerləşdirilən sığınacaq axtaran şəxslərin sərbəst hərəkət etmələrinə təminat verilir, onların gün ərzində müəyyən olunmuş müddətdə mərkəzi tərk etmək və oraya daxil olmaq hüquqları təmin edilir. Mərkəzə yerləşdirilən əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə pulsuz hüquqi yardım göstərilir və onlara miqrasiya sahəsində Azərbaycan Respublikasının qanunvericiliyi barədə məlumat verilir, sağlamlıqlarının qorunması üçün qanunvericilikdə nəzərdə tutulmuş lazımi tibbi xidmət göstərilir. Qanunvericiliyin tələblərinə görə həmin şəxslər vəsatətləri araşdırılan dövrdə, yəni 3 ay ərzində saxlama mərkəzində qala bilərlər.

96. Azərbaycan Respublikasında qaçqın statusu verilməsi haqqında ərizə təqdim etmiş və ya qaçqın statusu almış şəxslərin Azərbaycan Respublikasının vətəndaşları ilə nikah bağlamaları qanunvericiliyin tələblərinə uyğun olaraq təmin edilir. Nikaha daxil olan şəxslərə irqi əlamətlərinə, milliyyətlərinə, dini etiqadlarına, müəyyən sosial qrupa mənsubluqlarına və ya siyasi əqidələrinə görə fərq qoyulmur. Hazırda Dövlət Miqrasiya Xidmətinin qeydiyyatında müxtəlif ölkələrdən olan qaçqınlardan 14 nəfəri Azərbaycan Respublikasının vətəndaşları ilə nikahdadırlar.

97. "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında" Qanunda qaçqın statusundan məhrum etmənin şərtləri və qaçqınların başqa ölkəyə göndərilməsinin, verilməsinin və ya məcburən qaytarılmasının qadağan edilməsi də öz əksini tapmışdır. Qeyd edilən qanunun 15-ci maddəsinin 2-ci hissəsinə görə qaçqın statusu almaq üçün ərizə vermiş şəxsin məsələsi müvafiq icra hakimiyyəti

(Dövlət Miqrasiya Xidmətinin) tərəfindən həll edilənədək o, başqa ölkəyə göndərilə, verilə və ya qaytarıla bilməz. Həmin maddənin 3-cü hissəsinə görə, qaçqın statusundan məhrum etmək, qaçqını, eləcə də qaçqın statusu istəyən şəxsi başqa ölkəyə göndərmək, vermək və ya məcburən qaytarmaq barəsində qərarı məhkəmə müvafiq icra hakimiyyəti orqanının (Dövlət Miqrasiya Xidmətinin) müraciəti əsasında qəbul edir. Həmin qanunun 13-cü maddəsinin 4-cü hissəsinə əsasən qanunvericiliklə ayrı qayda müəyyən edilməmişdirsə, şəxsin şikayət verməsi onun Azərbaycan Respublikası ərazisindən göndərilməsinin təşkili ilə bağlı hərəkətləri dayandırır.

98. Qeyd edilməlidir ki, hesabat dövrü ərzində qaçqın statusu almaq üçün vəsatəti qeydiyyata alınmış şəxsin müraciəti araşdırılan dövrdə və barəsində müvafiq qərar qəbul edilənədək məcburi qaydada ölkə hüdudlarından kənara çıxarılması ilə bağlı hər hansı bir məlumat qeydə alınmamışdır.

99. 2009-2013-cü illər ərzində Dövlət Miqrasiya Xidmətinin tərəfindən 6 ərizəçiyə (ailə üzvləri ilə birlikdə 14 nəfərə) qaçqın statusu verilmişdir.

100. 2009-2013-cü illər ərzində müxtəlif ölkələrdən qaçqın statusu verilməsi haqqında vəsatətlə müraciət etmiş şəxslərdən 6 ərizəçiyə (ailə üzvləri ilə birlikdə 14 nəfərə) mənşə ölkələrinə qayıdacaqları təqdirdə təqib və işgəncələrə məruz qalma ehtimalına görə qaçqın statusu verilmişdir. 31 dekabr 2013-cü ilədək olan statistik məlumatlara görə hazırda müxtəlif ölkələrdən 50 ərizəçi (ailə üzvləri ilə birlikdə 68 nəfər) Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətində qaçqın kimi qeydiyyatdadır.

101. Dövlət Miqrasiya Xidməti sığınacaq axtaran şəxslərin vətəndaşları olduqları ölkəyə repatriasiyasına köməklik göstərir, BMT QAK-ın himayəsində olan qaçqınların 3-cü ölkələrə köçürülməsi sahəsində BMT QAK-la qarşılıqlı əməkdaşlıq edir.

102. Yekun icmalın 5-ci bəndindəki çeçen mənşəli Rusiya Federasiyası vətəndaşlarının yaşayış yeri üzrə qeydiyyata alınması ilə bağlı tövsiyə ilə əlaqədar bildiririk ki, ötən əsrin 90-cı illərindən başlayaraq çeçen mənşəli Rusiya Federasiyasının vətəndaşlarının qaçqın statusu verilməsi ilə bağlı vəsatətlərinin qeydiyyata alınması, araşdırılması və həmin şəxslər barədə müvafiq qərarların qəbul edilməsi BMT QAK-ın Azərbaycandakı Nümayəndəliyi tərəfindən həyata keçirilib və bu səbəbdən də həmin şəxslər hazırda qaçqın kimi adı qeyd edilən beynəlxalq təşkilatın qeydiyyatındadırlar. Ötən illər ərzində BMT QAK-ın Azərbaycandakı Nümayəndəliyinin himayəsində olan çeçen mənşəli Rusiya Federasiyası vətəndaşlarının bir qismi BMT QAK xətti ilə 3-cü ölkələrə köçürülmüş, digər qismi isə köçürülmələrini gözləyirlər.

103. Eyni zamanda qeyd etmək istərdik ki, qaçqın kimi tanınmayan şəxslər üçün Azərbaycan Respublikasının milli qanunvericiliyində alternativ himayə forması nəzərdə tutulmamışdır. Lakin belə şəxslərin sonrakı mərhələdə BMT QAK-ın Azərbaycandakı Nümayəndəliyinə müraciət etmələrinə və onların himayəsindən istifadə etmələrinə lazımi şərait yaradılmışdır. Belə ki, Azərbaycan Hökuməti BMT QAK-ın Azərbaycandakı Nümayəndəliyi tərəfindən himayəyə götürülmüş əcnəbiləri və vətəndaşlığı olmayan şəxsləri, o cümlədən çeçen mənşəli Rusiya Federasiyası vətəndaşlarını ölkə ərazisindən çıxarmır, onlara tolerant münasibət bəsləyir, onların yaşayış yeri seçmələrinə və yaşamalarına maneçilik törətmir.

**İnsan alveri qurbanlarının hüquqları ilə bağlı**

104. Yekun icmalın 7-ci bəndində qeyd olunmuş İnsan alverinə qarşı mübarizə üzrə Milli fəaliyyət Planının səmərəli şəkildə həyata keçirilməsi və insan alveri ilə mübarizə haqqında qanunvericiliyin tətbiq olunması və insan alverində günahkar hesab olunan şəxslərin səmərəli şəkildə istintaqa cəlb edilməsi və cəzalandırılması barədə tövsiyə ilə bağlı diqqətə çatdırırıq ki, "İnsan alverinə qarşı mübarizə üzrə 2009-2013-cü illər üçün Milli Fəaliyyət Planı"na uyğun olaraq fəaliyyətin səmərəliliyinin artırılması, qurbanların müdafiəsi və sosial reabilitasiyası, əməkdaşlıq və maarifləndirmə tədbirlərinin icrası ciddi nəzarətdə saxlanılır. Hökumət tərəfindən insan alveri qurbanları üçün sığınacağın fəaliyyətini, qurbanların sosial reabilitasiyasını, dərhal və maneəsiz xüsusi polis qurumuna təhvil verilməsini tənzimləyən normativ sənədlər, habelə "Qaynar xətt"in Nizamnaməsi, "Qurbanlara kömək Fondu haqqında Əsasnamə", "Milli İstiqamətləndirmə Mexanizmi Qaydaları", "Qurbanların müəyyən edilməsi Qaydaları (indikatorlar)", "İnsan alverinin qurbanı olmuş uşaqların sığınacaqda yerləşdirilməsi və saxlanılması Qaydaları" təsdiq edilmişdir.

105. İnsan alverinə qarşı mübarizə sahəsində həyata keçirilən tədbirlərin davamı olaraq Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti və Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birgə 2013-cü ilin avqust ayında "İnsan alveri, məcburi əməyə qarşı mübarizə üzrə, həmçinin belə halların baş verməsinin qarşısının alınması, nəticələrinin aradan qaldırılması istiqamətində Tədbirlər Planı (2013-2018-ci illər üzrə)" təsdiq edilmiş və bu istiqamətdə zəruri tədbirlər görülməkdədir.

106. Eyni zamanda, Daxili İşlər Nazirliyi ilə 45 qeyri-hökumət təşkilatını birləşdirən İnsan Alverinə Qarşı Qeyri-hökumət təşkilatları Koalisiyası arasında əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanmış və Milli Fəaliyyət Planının prioritet istiqamətlərindən olan maarifləndirmə tədbirlərinin birgə icrası üzrə xüsusi iş proqramı hazırlanıb icraya yönəldilmişdir. Mütəmadi olaraq, Koalisiya ilə İnsan alverinə qarşı mübarizə üzrə Milli kordinator yanında İşçi Qrupun üzvü olan dövlət qurumları nümayəndələrinin görüşləri keçirilmiş, insan alverinə qarşı mübarizənin mövcud vəziyyəti, qurbanların müdafiəsi, yeni Milli Fəaliyyət Planının icra edilməsi, qeyri-hökumət təşkilatları ilə əməkdaşlığın genişləndirilməsi və digər məsələlər barədə müzakirələr aparılmışdır.

107. Qeyd olunanlarla yanaşı, qurbanlara yardım göstərilməsi ilə bağlı Azərbaycan Respublikasının hökumət və qeyri-hökumət təşkilatlarına, habelə ədalət mühakiməsinin həyata keçirilməsinə dəstək məqsədilə ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyi (USAID) və ATƏT arasında 2011-2013-cü illər üzrə iki qrant müqaviləsi bağlanmışdır.

108. Bu istiqamətdə əldə edilmiş ən vacib nailiyyətlərdən biri də ölkəmizin 2010-cu ildə "Avropa Şurasının İnsan Alverinə qarşı Fəaliyyət üzrə Konvensiyası"na qoşulması olmuşdur. Həmin konvensiyanın icrası və tətbiqi ilə əlaqədar beynəlxalq təcrübənin öyrənilməsi üçün Avropa dövlətlərinin ekspertlərinin iştirakı ilə 2010 və 2011-ci illərdə Daxili İşlər Nazirliyinin və Avropa Şurasının İnformasiya Cəmiyyəti və Cinayətkarlığa qarşı Mübarizə üzrə Departamentinin birgə təşkilatçılığı ilə Bakıda seminarlar keçirilmişdir.

109. Eyni zamanda Konvensiyaya uyğun olaraq, insan alverinə qarşı mübarizə sahəsində qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində aidiyyəti dövlət qurumları ilə birgə bir

sıra tədbirlər həyata keçirilmişdir. Beynəlxalq təşkilatların tövsiyələri nəzərə alınaraq "İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununa və Cinayət Məcəlləsinə dəyişikliklər edilmişdir.

110. Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq Qərarı ilə "İnsan alveri qurbanlarının repatriasiya Qaydaları" təsdiq edilmişdir.

111. Bununla yanaşı, Nazirlər Kabinetinin 20 may 2011-ci il tarixli Qərarı ilə "İnsan alverinə şərait yaradan sosial problemlərin aradan qaldırılması üzrə Proqram" qəbul olunmuş, 3 avqust 2012-ci il tarixli qərarla isə insan alverindən zərər çəkmiş şəxslərə reinteqrasiya dövründə verilən müavinətin məbləği 400 manatadək artırılmışdır.

112. Həmçinin, eyni tarixdə (19 aprel 2013-cü il) "İnsan alverinə qarşı mübarizə haqqında" Qanuna da dəyişiklik edilərək "Bərpa və fikirləşmə müddəti" adlı 14-1-ci maddə əlavə olunmuşdur. Həmin maddəyə əsasən insan alverinin qurbanına öz vəziyyətini bərpa etmək, cinayətkarların təsirindən yayınmaq və cinayət təqibi orqanları ilə əməkdaşlıq etmək barədə düşünülmüş qərar qəbul etmək üçün 30 gün bərpa və fikirləşmə müddəti verilir. İnsan alverinin qurbanı təhlükəsizlik və müdafiə ehtiyaclarının təmin edilməsi, fiziki, psixoloji və sosial vəziyyətinin bərpası üçün xüsusi müəssisələrin xidmətlərindən istifadə edə bilər. Bərpa və fikirləşmə müddətində qurbana Azərbaycan Respublikasının hüdudlarından kənara inzibati qaydada çıxartma tətbiq edilmir.

113. İnsan alveri qurbanlarından daxil olmuş şikayətlərin statistikası ilə bağlı qeyd edirik ki, 2011-ci ildə insan alveri qurbanlarından 29 müraciət daxil olmuş, bununla əlaqədar 17 cinayət işinin istintaqı aparılmış və onlardan 12-si məhkəməyə göndərilmişdir. Cinayət məsuliyyətinə 20 təqsirləndirilən (2 kişi, 18 qadın) şəxs cəlb edilmiş, 29 insan alveri qurbanı (1 kişi, 28 qadın) müəyyən olunmuşdur ki, onların da hamısı Azərbaycan Respublikasının vətəndaşlarıdır. Təqsirləndirilən şəxslərdən 2-si 18-25, 1-i 25-35, 17-si 35-dən yuxarı, qurbanlardan 1-i yetkinlik yaşına çatmayan, 5-i 18-25, 18-i 25-35, 5-i 35-dən yuxarı yaş hədlərində olmuşlar.

114. 2012-ci ildə insan alveri qurbanlarından 53 müraciət daxil olmuş, insan alveri və məcburi əmək cinayətləri ilə bağlı 12 cinayət işinin istintaqı aparılmışdır. Cinayət işlərindən 11-i üzrə istintaq başa çatdırılaraq məhkəməyə göndərilmiş, 22 təqsirləndirilən (10 kişi, 12 qadın) şəxs cinayət məsuliyyətinə cəlb edilmiş, 53 insan alveri qurbanı (18 kişi, 35 qadın) müəyyən olunmuşdur. Onlardan 1-i İran İslam Respublikasının, digərləri Azərbaycan Respublikasının vətəndaşlarıdır. Təqsirləndirilən şəxslərdən 3-ü 18-25, 7-si 25-35, 12-si 35-dən yuxarı, qurbanlardan 2-si yetkinlik yaşına çatmayan, 9-u 18-25, 26-sı 25-35, 16-sı 35-dən yuxarı yaş hədlərində olmuşlar.

115. 2013-cü ilin 6 ayında insan alveri qurbanlarından 20 müraciət daxil olmuş, insan alveri və məcburi əmək cinayətləri ilə bağlı 15 cinayət işinin istintaqı aparılmış, onlardan 4-ü məhkəməyə göndərilmişdir. Cinayət məsuliyyətinə 6 təqsirləndirilən (hamısı qadın) şəxs cəlb edilmiş, 20 qurban (hamısı qadın) müəyyən olunmuşdur ki, onların da hamısı Azərbaycan Respublikasının vətəndaşlarıdır. Təqsirləndirilən şəxslərdən 2-si 25-35, 4-ü 35-dən yuxarı, qurbanlardan 9-u 18-25, 8-i 25-35, 3-ü 35-dən yuxarı yaş hədlərində olmuşlar.

116. Qurbanlardan 74-ü (2011-18, 2012-42, 2013-cü ilin birinci yarısı - 14) sığınacağa yerləşdirilmişdir. Bütün qurbanlara tibbi, psixoloji yardımlar göstərilmiş, hər biri zəruri geyimlə təmin edilmişdir. Bu cinayətdən zərər çəkmiş 92 nəfərə (2011 - 28, 2012 - 48, 2013-cü ilin birinci yarısı - 16) reinteqrasiya dövründə birdəfəlik müavinət, 63-nə (2011

- 21, 2012 - 35, 2013-cü ilin birinci yarısı - 7) İnsan alveri qurbanlarına Kömək Fondundan yardımlar verilmişdir.

117. Eyni zamanda şəxsiyyətini müəyyən etmək mümkün olmayan əcnəbi və ya vətəndaşlığı olmayan insan alveri qurbanlarına Azərbaycan Respublikasında yaşamaq hüququ verilməməsini nəzərdə tutan 20.6-cı maddə artıq Qanundan çıxarılmışdır. Qeyd olunmalıdır ki, 2009-2013-cü ilin 6 ayı ərzində Cinayət Məcəlləsinin 144-1-ci (İnsan alveri) maddəsi ilə bütövlükdə 131 şəxs məhkum olunmuşdur.

118. İnsan alveri ilə bağlı həyata keçirilmiş tədbirlər barədə müvafiq məlumatlar ictimaiyyətə çatdırılması üçün mütəmadi olaraq İnsan Alverinə qarşı Mübarizə İdarəsinin saytında (www.iaqmi.gov.az) yerləşdirilmişdir.

**Sığınacaq axtaran şəxslərin hüquqları**

119. Yekun icmalın 5-ci bəndində iş, təhsil, yaşayış yeri ilə təmin olunma və sağlamlıq sahələrində sığınacaq axtaran şəxslər, qaçqınlar və məcburi köçkünlərin ayrı-seçkiliklə üzləşdikləri qeyd olunur. Qeyd olunan məsələ ilə bağlı bildiririk ki, Azərbaycan Respublikasında sığınacaq axtaran şəxslərə münasibətdə tətbiq olunan prosedurlarda irqi, etnik və milli mənsubiyyətə görə ayrı-seçkiliyə yol verilməsi istisnadır. Ölkə ərazisində qaçqın statusu almış şəxslərin hüquqları "Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi", "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" və "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında" Qanunlar ilə tənzimlənir.

120. Sığınacaq axtaran şəxslərin arasında irqi, etnik və ya milli mənsubiyyətə görə hər hansı ayrı-seçkiliyə yol verilməməsi, rəsmi olaraq qaçqın kimi tanınmayan və müdafiəyə ehtiyacı olan şəxslərə münasibətdə əlavə müdafiə formalarının tətbiq edilməsi istiqamətində Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığının Azərbaycandakı Nümayəndəliyi tərəfindən 1 avqust 2013-cü il tarixinədək qeydiyyatı təsdiqlənmiş daimi və müvəqqəti himayəyə almış, habelə ərizələri icraatda olan 668 ailədən ibarət 1466 nəfər şəxsə himayə sənədi verilmişdir. Onlardan: Dövlət qaçqını - 63 nəfər, himayə - 822 nəfər, müvəqqəti himayə - 452 nəfər və icraatda - 129 nəfər (kişi - 858 nəfər və qadın - 608 nəfər) olmuşdur. Həmin şəxslərdən: 667 nəfəri Əfqanıstan, 649 nəfəri Rusiya, 86 nəfəri İran, 23 nəfəri Pakistan, 11 nəfəri İraq, 10 nəfəri Suriya, 8 nəfəri Fələstin, 5 nəfəri Ermənistan, 2 nəfəri Yəmən, 1 nəfəri Konqo, 1 nəfəri Kamerun, 1 nəfəri BƏM, 1 nəfəri Banqladeş Respublikasının vətəndaşı, habelə 1 nəfər vətəndaşlığı olmayan şəxsdir.

121. Qaçqın statusu verilmiş, habelə Azərbaycan Respublikası tərəfindən siyasi sığınacaq verilmiş əcnəbilər və vətəndaşlığı olmayan şəxslər barəsində kənara çıxarma haqqında qərar qəbul edilmir. Həmçinin, insan alverindən zərər çəkmiş hesab olunan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər barəsində 1 il müddətində, cinayət təqibi orqanlarına yardım göstərən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər barəsində isə cinayət təqibi başa çatanadək kənara çıxarma haqqında qərar qəbul edilmir. İnsan alverinin qurbanı olan uşaqlar barəsində kənara çıxarma haqqında qərar qəbul edilmir.

## E. İqtisadi, Sosial və Mədəni hüquqlar

122. 2013-cü ilin əvvəlinə Azərbaycanda iqtisadi fəal əhali 4 milyon 688,4 min nəfər təşkil etmişdir. Həmin əhalinin 4 milyon 445,3 min nəfəri (94,8%) iqtisadiyyatın müxtəlif sahələrində məşğul, 243,1 min nəfəri (5,2 faiz) isə işsizdir. İşsizlərin 36,8 min nəfəri məşğulluq orqanlarında rəsmi işsiz statusu almışlar. Məşğul əhalinin 1 milyon 157,7 min nəfəri (26 faiz) dövlət sektorunda, 3 milyon 287,6 min nəfəri (74 faiz) isə qeyri-dövlət sektorunda çalışanlardır.

123. 2009-cu il əhalinin siyahıyaalınmasının məlumatlarına əsasən Azərbaycan Respublikasının iqtisadi fəal əhalisinin millətlər üzrə bölgüsü aşağıdakı cədvəldə verilmişdir:

| Millətlər | iqtisadi fəal əhali, min nəfər |
|---|---|
| Əhalinin sayı-cəmi | 4565,8 |
| *o cümlədən:* | |
| azərbaycanlılar | 4176,8 |
| ləzgilər | 97,7 |
| ermənilər | 54,3 |
| ruslar | 61,1 |
| talışlar | 60,4 |
| avarlar | 30,3 |
| türklər | 21,6 |
| tatarlar | 13,7 |
| tatlar | 11,4 |
| ukraynalılar | 10,0 |
| saxurlar | 6,9 |
| gürcülər | 5,5 |
| yəhudilər | 3,3 |
| kürdlər | 3,0 |
| qrızlar | 2,3 |
| udinlər | 2,1 |
| xınalıqlar | 1,0 |
| digər millətlər | 4,4 |

124. Azərbaycan Respublikası Konstitusiyasının 42-ci maddəsinə əsasən hər bir vətəndaş təhsil, xüsusən də, pulsuz icbari ümumi-orta təhsil almaq hüququna malikdir.

125. Azərbaycan Respublikasında yaşayan milli azlıqların dilinin qorunması və inkişafı ilə bağlı nəzərə alınmalıdır ki, Konstitusiyanın 127-ci maddəsinə əsasən məhkəmə icraatı Azərbaycan Respublikasının dövlət dilində və ya müvafiq yerin əhalisinin çoxluq təşkil edən hissəsinin dilində aparılır. İşin iştirakçısı olub məhkəmə icraatının aparıldığı dili bilməyən şəxslərin işin materialları ilə tam tanış olmaq, məhkəmədə tərcüməçi vasitəsi ilə iştirak etmək və məhkəmədə ana dilində çıxış etmək hüququ təmin edilir. "İctimai televiziya və radio yayımı haqqında" Qanunun 12-ci maddəsinə əsasən ictimai yayım proqramlarına Azərbaycan Respublikasının ərazisində yaşayan milli azlıqların dillərində verilişlər daxil edilir.

126. Həmçinin, “Kütləvi informasiya vasitələri haqqında” Qanunun 6-cı maddəsində vətəndaşların kütləvi informasiyanın istehsalı və yayımında Azərbaycan Respublikası əhalisinin danışdığı başqa dillərdən, habelə dünyada geniş yayılmış digər dillərdən istifadə etmək hüququ vardır.

127. “Dövlət dili haqqında” Qanunun 5.2-ci maddəsində isə Azərbaycan Respublikasında başqa dillərdə təhsil müəssisələrinin fəaliyyət göstərməsi də nəzərdə tutulmuşdur. “Təhsil haqqında” Qanunun 7.2-ci maddəsinə uyğun olaraq vətəndaşların və təhsil müəssisəsi təsisçilərinin istəyi nəzərə alınaraq, xüsusi hallarda ümumi təhsil müəssisəsində Azərbaycan dili, ədəbiyyatı, tarixi və coğrafiyası fənləri tədris olunmaqla tədris müvafiq dövlət təhsil standartları əsasında digər dillərdə də aparıla bilər. Həmin qanunun 32.3.2-ci maddəsində təhsil dilini sərbəst seçmək təhsil alanların hüququ kimi müəyyən olunmuşdur.

128. Azərbaycan Respublikasının “Mədəniyyət haqqında” 21 dekabr 2012-ci il tarixli Qanununun 6.2-ci maddəsində dövlətin cinsindən, irqindən, dilindən, dini və siyasi əqidəsindən, milliyyətindən, sosial vəziyyətindən, sosial mənşəyindən, sağlamlıq imkanlarından, ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq, hər bir şəxsin mədəniyyət sahəsində öz hüquq və azadlıqlarını həyata keçirməsinə təminat verməsi təsbit olunmuş, 43-cü maddəsində isə müharibənin, sosial, irqi, milli, dini, təbəqə, nəsil üstünlüyünün təbliğinə və təşviqinə yönəlmiş çağırışların səsləndirilməsini nəzərdə tutan mədəniyyət tədbirlərinin keçirilməsi, habelə irqindən, milliyyətindən, dinindən, dilindən, sosial mənşəyindən, qulluq mövqeyindən, əqidəsindən, ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq mədəniyyət sahəsində əsas insan və vətəndaş hüquq və azadlıqlarının məhdudlaşdırılması mədəniyyət sahəsində yol verilməyən hərəkətlərə aid edilmişdir.

129. YUNESKO-nun 20 oktyabr 2005-ci il tarixində qəbul etdiyi “Mədəni özünüifadə müxtəlifliyinin qorunması və təşviqi haqqında Konvensiya”ya uyğun olaraq, Azərbaycan Respublikasında yaşayan milli azlıq və etnik qrupların mədəniyyəti Azərbaycan mədəniyyətinin tərkib hissəsi kimi qorunur və inkişaf edir, bu xalqların milli mədəniyyətinin, incəsənətinin, adət-ənənələrinin və dilinin qorunub saxlanılması üçün məqsədyönlü iş aparılır.

130. Hesabat dövründə Azərbaycanda yaşayan azsaylı xalqların mədəni həyatı ilə bağlı bir sıra festivallar, alimlərin iştirakı ilə elmi konfranslar, fotosərgilər keçirilmişdir.

131. Musiqili Komediya Teatrında və Rəşid Behbudov adına Mahnı Teatrında Bakı şəhərində və respublikamızın 15-dək rayonunda fəaliyyət göstərən və demək olar ki, bütün milli azlıq və etnik qrupları təmsil edən, 800 nəfər iştirakçını özündə birləşdirən 40-dan çox kollektivin çıxışları baş tutmuşdur.

132. 2011-ci ilin 14-18 iyun tarixlərində “Azərbaycan – doğma diyar” devizi altında Azərbaycanda yaşayan xalqların incəsənəti III Respublika festivalı keçirilmişdir. Festival çərçivəsində 1000 nüsxədə və 5 dildə (Azərbaycan, ingilis, rus, fransız və alman) “Azərbaycanda yaşayan xalqların mahnıları” (42 mahnı) CD diski nəşr edilmiş, Muzey Mərkəzində “Qloballaşma dövründə Azərbaycanın etnik mədəniyyəti” mövzusunda dəyirmi masa keçirilmişdir. Son bir il ərzində Bakı şəhərinin “Suvar” ləzgi mahnı və rəqs ansamblı, Masallı rayonunun “Halay” talış rəqs ansamblı, Lerik rayonunun “Uzun ömürlülülər” rəqs kollektivi Türkiyədə və Macarıstanda keçirilən beynəlxalq festivallarda iştirak etmişlər.

133. Ölkəmiz tərəfindən "2010-2014-cü illər üçün Xalq Yaradıcılığı Paytaxtları" Proqramı təsdiq edilmişdir. Sözügedən proqram regionlarda mədəniyyət xadimlərinin yaradılıcılıq potensialının inkişafına şərait yaratmışdır.

134. Uzun illərdir fəaliyyət göstərən Azərbaycan Dövlət Rus Dram Teatrı, Qusar Dövlət Ləzgi Dram Teatrı, Qax Dövlət Gürcü Dram Teatrı milli azlıqların mədəni özünəməxsusluğunun qorunub saxlanılmasında mühüm rol oynayır.

135. Bu tədbirlərin keçirilməsində məqsəd Azərbaycan Respublikası Konstitusiyasının 40-cı maddəsinə (mədəniyyət hüququ) uyğun olaraq "Hər kəsin mədəni həyatda iştirak etmək, mədəniyyət təsisatlarından və mədəni sərvətlərdən istifadə etmək hüququ"nun təmin edilməsi, habelə gənc istedadların üzə çıxarılması, beynəlxalq mədəni əlaqələrin möhkəmləndirilməsidir.

136. Vətəndaş cəmiyyətinin başlıca meyarlarından olan "insan hüquqlarının aliliyi" prinsipinin təşviqi məqsədilə Mədəniyyət və Turizm Nazirliyinin sistemində fəaliyyət göstərən Azərbaycan Turizm İnstitutu, Mingəçevir Turizm Kolleci və Respublika Mədəniyyət Müəssisələri İşçilərinin Hazırlıq və İxtisasartırma Mərkəzində mütəmadi olaraq müvafiq mövzular ətrafında açıq mühazirələr təşkil olunur. "Demokratik cəmiyyətdə insan hüquqlarının qorunması" mövzusunda Azərbaycan Turizm İnstitutunda dövri olaraq dəyirmi masalar keçirilir. Tədbirin əsas məqsədi insan hüquqları sahəsində mövcud olan problemlər haqqında maarifləndirmə aparılmasıdır.

137. Azərbaycan təkcə milli səviyyədə deyil, həmçinin beynəlxalq səviyyədə də mədəniyyətlərarası dialoqun təbliği istiqamətində mühüm təşəbbüsləri həyata keçirir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 4 noyabr 2008-ci il tarixdə Avropa Şurasına üzv dövlətlərin mədəniyyət nazirlərinin "Mədəniyyətlərarası dialoq Avropa və onun qonşu regionlarında davamlı inkişafın və sülhün əsasıdır" mövzusunda konfransının Bakı şəhərində keçirilməsi haqqında Sərəncamına uyğun olaraq 2008-ci il 2-3 dekabr tarixində Bakıda Avropa Şurasına üzv dövlətlərin Mədəniyyət Nazirlərinin konfransı keçirilmişdir. Konfrans Avropa Şurası ilə birgə təşkil edilmişdir.

138. Bakı konfransı, Avropa Şurasının "Mədəniyyətlərarası Dialoqa dair Ağ kitab" sənədi və sənəddəki tövsiyələrin həyata keçirilməsi, həmçinin Avropanın öz qonşuları ilə dialoq ənənələrinin öyrənilməsi istiqamətində mühüm əhəmiyyət kəsb etmişdir.

139. Mədəniyyət nazirlərinin Bakı konfransında "Mədəniyyətlərarası dialoqa dair Bakı Bəyannaməsi" qəbul olunmuş və əsas məqsədi istedadlı insanların, mədəniyyət sahəsində çalışan şəxslərin hüquqlarının qorunması, onların beynəlxalq səviyyədə mədəni proseslərdə iştirakının təmin edilməsi və onlar vasitəsilə mədəniyyətlərarası dialoqun təşviq olunması olan "Sənətçilər dialoq naminə" layihəsinin əsası qoyulmuşdur.

140. "Mədəniyyətlərarası dialoqa dair Bakı prosesi"nin davamlılığını təmin etmək məqsədilə Bakı şəhərində 2009-cu ilin 13-15 oktyabr tarixində İslam Konfransı Təşkilatına üzv dövlətlərin Mədəniyyət Nazirlərinin VI Konfransı keçirilmişdir. Konfransın ilk günü Azərbaycan Hökumətinin təşəbbüsü, İSESKO və Avropa Şurasının vasitəçiliyi ilə İslam Konfransı təşkilatına üzv dövlətlərlə bir sıra Avropa dövlətləri arasında "Bakı prosesi: sivilizasiyalar arasında dialoqa yeni çağırış" mövzusunda dəyirmi masa təşkil edilmişdir. Dəyirmi masanın iştirakçıları sonda yekun kommunike qəbul etmişlər. Kommunikedə ikitərəfli, regional və beynəlxalq səviyyədə əməkdaşlıq, təcrübə

mübadiləsi, İslam dünyası ilə Avropa arasında mədəniyyətlərarası dialoqun inkişaf etdirilməsi, bu sahədə layihə və proqramların həyata keçirilməsi, həmçinin münaqişə regionlarında mədəni irsin qorunması ilə bağlı birgə tədbirlərin görülməsi məsələləri öz əksini tapmışdır.

141. Azərbaycanda 7-9 aprel 2011-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin başçılığı altında Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu keçirildi. İkinci Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu "Çoxmədəniyyətli dünyada sülh şəraitində birgə yaşayaq" şüarı altında 2013-cü il 29 may - 1 iyun tarixlərində keçirilmişdir.

142. Ədliyyə Nazirliyi tərəfindən etnik azlıqlarla bağlı 49 qeyri-hökumət təşkilatı (bütövlükdə insan hüquqları sahəsində 300-ə yaxın) dövlət qeydiyyatına alınmışdır.

143. Əmək Məcəlləsinin "Əmək münasibətlərində ayrı-seçkiliyin yolverilməzliyi" kimi təsbit olunmuş 16-cı maddəsinə əsasən əmək münasibətlərində vətəndaşlığına, cinsinə, irqinə, dininə, milliyyətinə, dilinə, yaşayış yerinə, əmlak vəziyyətinə, ictimai-sosial mənşəyinə, yaşına, ailə vəziyyətinə, əqidəsinə, siyasi baxışlarına, həmkarlar ittifaqlarına və ya başqa ictimai birliklərə mənsubiyyətinə, qulluq mövqeyinə, həmçinin işçinin işgüzar keyfiyyətləri, peşəkarlıq səriştəsi, əməyinin nəticələri ilə bağlı olmayan digər amillərə görə işçilər arasında hər hansı ayrı-seçkiliyə yol verilməsi, həmin amillər zəminində bilavasitə və ya dolayısı ilə imtiyazların və güzəştlərin müəyyən edilməsi, habelə hüquqlarının məhdudlaşdırılması qəti qadağandır. Əmək münasibətləri prosesində işçilər arasında ayrı-seçkiliyə yol verən işəgötürən və ya digər fiziki şəxs qanunvericilikdə nəzərdə tutulmuş qaydada müvafiq məsuliyyət daşıyır. Ayrı-seçkiliyə məruz qalan işçi pozulmuş hüququnun bərpa edilməsi tələbi ilə məhkəməyə müraciət edə bilər.

144. Məşğulluq sahəsində dövlət siyasətinin hüquqi, iqtisadi və təşkilatı əsaslarını, eləcə də vətəndaşların əmək sahəsində və işsizlərin sosial müdafiəsi sahəsində dövlət təminatlarını müəyyən edən "Məşğulluq haqqında" 2001-ci il 2 iyul tarixli Azərbaycan Respublikası Qanununun 6.2.1-ci maddəsində məşğulluq sahəsində dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, ailə vəziyyətindən, ictimai-sosial mənşəyindən, yaşayış yerindən, əmlak vəziyyətindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşlara əmək və məşğulluğu sərbəst seçmək hüququnun həyata keçirilməsində bərabər imkanların təmin edilməsi təsbit olunmuşdur.

145. Cinayət Məcəlləsinin 111.0.3-cü maddəsində irqi qrupun və ya qrupların ölkənin siyasi, sosial, iqtisadi və mədəni həyatında iştirakının qarşısını almaq, habelə qrupa və ya qruplara mənsub olan şəxslərin işləmək, həmkarlar təşkilatlarını yaratmaq, təhsil almaq, ölkədən getmək və ölkəyə qayıtmaq, vətəndaşlıq, hərəkət etmək və yaşayış yerini seçmək, fikir və söz azadlığı, toplaşmaq və birləşmək hüquqları daxil olmaqla əsas insan hüquq və azadlıqlarını inkar etməklə tam inkişafın qarşısını almaq məqsədilə hər hansı qanunverici və digər tədbirin həyata keçirilməsinə görə cinayət məsuliyyəti müəyyən edilmişdir.

**Qaçqınlar və məcburi köçkünlərin hüquqları**

146. "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında" Qanunun 6-cı maddəsinə əsasən, Azərbaycan Respublikasında qaçqın statusu almış şəxslərə iş və yaşayış yeri əldə edənədək xüsusi ayrılmış yerlərdə ən çoxu 3 ay müddətində yaşamağa, haqq ödəmədən müvəqqəti yaşayış yerinə getməyə və əmlakını aparmağa şərait yaradılır, Azərbaycan Respublikasında haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün iş icazəsi tələb olunmadan ölkə ərazisində işləmək, dövlətin təyin etdiyi birdəfəlik və digər yardım almaq, tibb yardımı almaq, pozulmuş hüquqlarının müdafiəsi üçün məhkəməyə müraciət etmək, əvvəlki yaşayış yerlərinə qayıtmaq və sair hüquqları təmin edilir.

147. Qaçqın statusu almış şəxs Azərbaycan Respublikasının qanunvericiliyində əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün nəzərdə tutulan hüquqlarından istifadə edir və vəzifələri daşıyır. Qaçqın statusu almış şəxslərin yeni doğulmuş uşaqlarına doğum haqqında şəhadətnamələr verilir, onların uşaqlarının məktəbəqədər tərbiyə ocaqlarında, yeniyetmə və gənclərin isə müvafiq təhsil müəssisələrində təhsil almaları, yerli şəraitə uyğunlaşmaları, təbəəliyə keçmələri, dil öyrənmələri, Azərbaycan Respublikasının vətəndaşlığını əldə etmələri üçün müvafiq şərait yaradılır.

148. Sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən vətəndaşların kateqoriyasına 20 yaşadək gənclər, yetkinlik yaşına çatmamış uşaqları tərbiyə edən tək və çoxuşaqlı valideynlər, sağlamlıq imkanları məhdud olan uşaqları tərbiyə edən qadınlar, pensiya yaşına 2 ildən az qalmış şəxslər, əlillər, cəzaçəkmə yerlərindən azad edilmiş vətəndaşlar, məcburi köçkünlər, müharibə veteranları, şəhid ailələri aid edilirlər.

149. Azərbaycan Respublikası Prezidentinin 1 iyul 2004-cü il tarixli, 298 nömrəli Sərəncamı ilə "Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı" təsdiq edilmişdir. Azərbaycan Respublikası Dövlət Neft Fondunun, dövlət büdcəsinin, donor dövlətlərin və beynəlxalq humanitar təşkilatların vəsaiti hesabına çadır düşərgələrində, dəmir yolu üzərindəki yük vaqonlarında, yaşayış üçün yararlı olmayan ictimai və tikintisi yarımçıq qalmış binalarda, digər müvəqqəti məskunlaşma yerlərində çox ağır şəraitdə yaşayan və sosial problemlərlə üzləşən vətəndaşlarımızın mənzil-məişət şəraitinin yaxşılaşdırılmasını, onlar üçün iş yerlərinin yaradılmasını və digər sosial problemlərin həllini təmin etmək məqsədilə on minlərlə ailə üçün yeni qəsəbələr salınmış, ayrı-ayrı şəhər və rayonlarda müasir tipli evlər, mənzillər tikilib qaçqınların və məcburi köçkünlərin istifadəsinə verilmiş, onların sosial müdafiəsi ilə bağlı çoxsaylı humanitar layihələr və digər tədbirlər həyata keçirilmişdir.

150. Bununla yanaşı, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 11 fevral 2013-cü il tarixli 21 nömrəli Qərarı ilə "Büdcədən maliyyələşdirilən müəssisələrdə, təşkilatlarda çalışmış və özlərindən asılı olmayaraq iş yerindən məhrum olmuş məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması tədbirləri haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 10 may tarixli 181 nömrəli qərarının 2-ci hissəsinin müddəti 2014-cü il yanvarın 1-dək uzadılmışdır.

151. Həmçinin, adıçəkilən qərara əsasən Azərbaycan Respublikası Təhsil Nazirliyinə, Səhiyyə Nazirliyinə, Mədəniyyət və Turizm Nazirliyinə, digər aidiyyəti dövlət orqanlarına və əraziləri işğal olunmuş rayonların icra hakimiyyətlərinə tabeliyində olan qurumlarda müvafiq boş (vakant) iş yerlərinə məcburi köçkünlərin işə qəbulu ilə bağlı zəruri tədbirlərin görülməsinin daha da gücləndirilməsi və görülmüş işlər barədə

hesabatı rübdə bir dəfə Azərbaycan Respublikası Nazirlər Kabinetinə təqdim etmələrinə dair tapşırıq verilmişdir.

152. Qərarda Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin məşğulluq xidməti orqanlarına müraciət etmiş məcburi köçkünlərin məşğulluğu ilə bağlı qanunvericiliklə müəyyən olunmuş qaydada müvafiq tədbirlərin həyata keçirilməsinin təmin olunması tapşırılmışdır.

153. Respublikanın demək olar ki, bütün regionlarında məskunlaşmış məcburi köçkünlərin məşğulluğunun və sosial müdafiəsinin təmin olunması sahəsində operativ və təxirəsalınmaz tədbirlərin həyata keçirilməsi məqsədi ilə onların kompakt məskunlaşdığı regionlarda məcburi köçkün rayonlarının Məşğulluq Mərkəzlərinin fəaliyyəti təmin edilmiş, müvafiq ştat vahidləri ilə təmin olunmuşdur.

154. Ümumiyyətlə, 2009-2012-ci illər ərzində 7487 nəfər qaçqın və məcburi köçkün münasib işlə təmin olunmuş, həmin dövr ərzində 1813 nəfər işəgötürənlərin real tələbləri əsasında müasir, eləcə də milli peşələr üzrə hazırlıq kurslarına, 948 nəfər haqqı ödənilən ictimai işlərə cəlb edilmiş, 1293 nəfər qaçqın və məcburi köçkünə işsiz statusu verilərək, 1535 nəfərə işsizliyə görə müavinət təyin edilmişdir.

**Əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin hüquqları**

155. Azərbaycan Respublikasında əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün əmək fəaliyyətini həyata keçirməkdə hər hansı ayrı-seçkilik müəyyən edilməmişdir. Əmək Məcəlləsinin 13-cü maddəsinə görə qanunla və ya Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr ilə başqa hal nəzərdə tutulmayıbsa, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasında olarkən Azərbaycan Respublikası vətəndaşları ilə bərabər bütün əmək hüquqlarından istifadə edə bilir və bu hüquqlara müvafiq olaraq vəzifələr daşıyırlar.

156. Qanunda nəzərdə tutulmuş hallar istisna olmaqla əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Əmək Məcəlləsi ilə və digər normativ hüquqi aktlarla nəzərdə tutulmuş əmək hüquqlarının məhdudlaşdırılması qadağandır.

157. Miqrasiya Məcəlləsinin 45.0.9-cu maddəsinə əsasən Azərbaycan Respublikasının ali və orta ixtisas təhsili müəssisələrində əyani formada və ümumtəhsil müəssisələrində təhsil aldıqda əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazə verilir.

158. Sözügedən məcəllənin 64.0.14-cü və 64.0.16-cı maddələrinə əsasən Azərbaycan Respublikasının vətəndaşı ilə nikahda olan (bu şərtlə ki, həmin vətəndaş Azərbaycan Respublikasının ərazisində yaşayış yeri üzrə qeydiyyatda olsun), yaxud himayəsində 18 yaşına çatmamış və ya 1-ci qrup əlil Azərbaycan Respublikasının vətəndaşı olan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün iş icazəsinin alınması tələb olunmur.

159. Qanunvericilikdə miqrantların həmkarlar təşkilatında birləşmələrinə hər-hansı məhdudiyyət nəzərdə tutulmur. Azərbaycan Respublikası Əmək Məcəlləsinin 19.1-ci maddəsinə əsasən işçilər arasında heç bir fərq qoyulmadan, işəgötürəndən qabaqcadan icazə alınmadan, sırf könüllülük prinsipləri əsasında həmkarlar ittifaqları təşkilatı yaradıla bilər. Eyni zamanda, Azərbaycan Respublikasının "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" Qanununa əsasən Azərbaycan Respublikasında

daimi yaşamaq hüququ olan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının ərazisində qeyri-hökumət təşkilatının təsisçisi ola bilərlər. Adıçəkilən qanuna əsasən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasında fəaliyyət göstərən qeyri-hökumət təşkilatlarının iştirakçıları ola bilər.

160. "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun 3.2-ci maddəsinə əsasən Azərbaycan Respublikası ərazisində yaşayan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin qanunla nəzərdə tutulmuş şərtlərlə Azərbaycan Respublikası vətəndaşları ilə bərabər əsaslarla əmək pensiyası təminatı hüququ vardır. Hazırda əcnəbilər bu hüquqlarından istifadə edirlər.

161. "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq, Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslər sağlamlığın qorunması sahəsində Azərbaycan Respublikasının vətəndaşları ilə bərabər hüquqlara malikdirlər. Əcnəbilər Azərbaycan Respublikasının iştirakçısı olduğu beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş qaydalara uyğun olaraq, sağlamlığın qorunması hüququna malikdirlər. Qeyd olunan qanunun 10-cu maddəsinə uyğun olaraq, Azərbaycan Respublikasının dövlət tibb müəssisələrində tibbi xidmət pulsuzdur. Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən miqrantlar hər hansı bir məhdudiyyət və ayrı-seçkilik olmadan təcili və xüsusi tibbi yardımdan istifadə edə bilirlər.

162. Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinə əsasən ölkə iqtisadiyyatına azı 500.000 manat məbləğində investisiya qoyan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazə ərizəçinin müraciətində göstərilən, lakin 3 ildən artıq olmayan müddətə verilir və müvafiq əsas olduqda, hər dəfə 3 ildən çox olmayan müddətə uzadıla bilər. Miqrasiya Məcəlləsinin 50.0.5-ci və 55.0.2-ci maddələrinə əsasən müvafiq icra hakimiyyəti orqanı (Dövlət Miqrasiya Xidməti) tərəfindən Azərbaycan Respublikasının vətəndaşı ilə nikahda olanlar istisna olmaqla əcnəbiyə və vətəndaşlığı olmayan şəxsə siyahısı müvafiq icra hakimiyyəti orqanı (Nazirlər Kabineti) tərəfindən təsdiq edilən təhlükəli yoluxucu xəstəlik virusu daşıyıcısı olduqda Azərbaycan Respublikasında daimi və müvəqqəti yaşamaq üçün icazə verilmir (müddəti uzadılmır), əvvəl verilmiş icazə isə ləğv edilir.

163. Həmin məcəllənin 61.1-ci maddəsinə görə 18 yaşına çatmış əmək qabiliyyətli hər bir əcnəbi və vətəndaşlığı olmayan şəxs qanunvericilik ilə müəyyən edilmiş qayda və şərtlərlə onu işə cəlb edən hüquqi şəxslər, hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər və xarici hüquqi şəxslərin filial və nümayəndəlikləri vasitəsi ilə iş icazəsi aldıqdan sonra Azərbaycan Respublikasında işləyə bilər.

164. Dövlət Miqrasiya Xidməti tərəfindən 2012-ci ildə 11970, 2013- cü ildə 11938 əcnəbiyə və vətəndaşlığı olmayan şəxsə iş icazəsi verilmişdir. 2009-2013-cü illərdə 168.049 (bunlardan 375 nəfəri vətəndaşlığı olmayan şəxslərdir) əcnəbiyə və vətəndaşlığı olmayan şəxsə müvəqqəti yaşama icazəsi, 9982 şəxsə (bunlardan 599 nəfəri vətəndaşlığı olmayan şəxslərdir) isə daimi yaşama icazəsi verilmişdir. 2011-2013-cü illərdə 590 nəfər (461-i vətəndaşlığı olmayan şəxs olmaqla) Azərbaycan Respublikası vətəndaşlığına qəbul edilmiş, 22 nəfərin (18-i vətəndaşlığı olmayan şəxs olmaqla) Azərbaycan Respublikası vətəndaşlığı bərpa olunmuş, 602 nəfər isə qanunvericiliyə müvafiq qaydada Azərbaycan Respublikası vətəndaşlığından çıxmışdır. 2011-2013-cü illərdə Dövlət Miqrasiya Xidməti tərəfindən 11855 şəxsin Azərbaycan Respublikası vətəndaşlığına mənsub olduğu müəyyənləşdirilmişdir.

165. Azərbaycan Respublikası Prezidentinin 15 noyabr 2011-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə 2011-2015-ci illər üçün Dövlət Proqramı"nın icrası üzrə Tədbirlər Planının 2.18-ci bəndində respublikanın əmək bazarında xarici işçi qüvvəsinin iştirakının tənzimlənməsi, ölkə daxilində əməkçi miqrantların hüquqlarının qorunması və bu sahədə nəzarət işinin gücləndirilməsi üzrə tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur.

**İnsan alveri qurbanlarının hüquqları**

166. İnsan alveri qurbanlarına yardım haqqında" Azərbaycan Respublikasının Qanununun icrası ilə əlaqədar olaraq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzdində "İnsan Alveri Qurbanlarına Yardım Mərkəzi yaradılmışdır. 2009–cu ildən (fəaliyyətə başladığı dövrdən) - 2013-cü ilin avqust ayına qədər cəmi 279 nəfər insan alveri qurbanına ( 166 nəfər) və potensial insan alveri qurbanına (113 nəfər) müvafiq tibbi, psixoloji, hüquqi və digər yardımlar göstərilmişdir.

167. Belə ki, 75 nəfərə psixoloji, 50 nəfərə hüquqi, 30 nəfərə tibbi yardımlar göstərilmişdir. Qeyd olunanlarla yanaşı, 155 nəfər peşə kurslarına göndərilmiş, 37 nəfər işlə təmin olunmuş, 6 nəfərə maddi yardım göstərilmiş, 8 nəfər lazımi dərman preparatları ilə təmin olunmuş, insan alverinin qurbanları olan 3 nəfərin uşaqları uşaq bağçaları və körpələr evlərinə yerləşdirilmişdir.

168. Qanunvericiliyin təkmilləşdirilməsi sahəsində aparılan fəaliyyət çərçivəsində qeyd olunan Mərkəz tərəfindən hazırlanmış "İnsan alveri qurbanlarının sosial reabilitasiyasının həyata keçirilməsi Qaydaları ("İnsan alverinə qarşı mübarizə üzrə Milli Fəaliyyət Planı"nın həyata keçirilməsi ilə bağlı Tədbirlər Planının 7-ci bəndinə uyğun olaraq) Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 fevral 2010-cu il tarixli Qərarı ilə təsdiq edilmişdir.

169. "İnsan alverinə qarşı mübarizə üzrə Milli Fəaliyyət Planının həyata keçirilməsi ilə bağlı Tədbirlər Planının 3-cü bəndinin "ə" yarımbəndinin (insan alverinə şərait yaradan sosial problemlərin aradan qaldırılmasına yönəlmiş proqramların hazırlanması və həyata keçirilməsi) icrası ilə əlaqədar hazırlanmış Proqram Azərbaycan Respublikası Nazirlər Kabinetinin 26 may 2011-ci il tarixli qərarı ilə təsdiq edilmişdir.

170. İnsan Alveri Qurbanlarına Yardım Mərkəzi öz fəaliyyətində Beynəlxalq Miqrasiya Təşkilatı (BMqT), Gəncədə fəaliyyət göstərən "Təmas Regional İnkişaf" İctimai Birliyi nəzdində yaradılmış Regional Reabilitasiya və Reinteqrasiya Mərkəzi (Müvəqqəti sığınacaq), "Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyi, "Azərbaycan Uşaqlar Birliyi", "Sosial Qayğı və Tədqiqatlar" İctimai Birliyi, "Ailə Dünyası" Ailələrə Hüquqi Yardım İctimai Birliyi, "Könül Evi" Aztəminatlı Ailələrə Yardım İctimai Birliyi kimi bir sıra qeyri-hökumət təşkilatları ilə əməkdaşlıq edir.

## Maddə 6

171. Qanunvericiliyə əsasən vətəndaş onun hüquq və azadlıqlarını pozan qərarlar və hərəkətlər (hərəkətsizlik) barəsində birbaşa məhkəməyə və ya tabelik qaydasında yuxarı

dövlət orqanlarına, yerli özünüidarə orqanlarına, müəssisələrə, idarələrə və təşkilatlara, ictimai birliklərə, vəzifəli şəxslərə şikayətlə müraciət edə bilər.

172. Pozulmuş və ya mübahisə edilən hüquqlarının və qanunla qorunan mənafelərinin müdafiəsi üçün əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının məhkəmələrinə müraciət etmək hüququ vardır. Xarici şəxslər Azərbaycan Respublikası vətəndaşları ilə bərabər prosessual hüquqlardan istifadə edir və prosessual vəzifələr daşıyırlar.

173. Qeyd olunmalıdır ki, ötən dövrdə ədalət mühakiməsinin səmərəliliyinin və vətəndaşların məhkəmələrə inamının artırılması, məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı əsaslı tədbirlər həyata keçirilmişdir.

174. Əhalinin, məhkəmələrə müraciət imkanlarının asanlaşdırılması məqsədilə ölkəmizdə 20-dək yeni regional, o cümlədən, apelyasiya və ağır cinayətlər məhkəmələri yaradılmış, hərbi məhkəmə sistemi təkmilləşdirilmişdir. Dövlət orqanları tərəfindən vətəndaşların hüquqlarının pozulmasının qarşısının alınmasında inzibati ədliyyənin xüsusi əhəmiyyəti nəzərə alınaraq ölkənin 7 bölgəsində inzibati-iqtisadi məhkəmələr təsis olunmuş və 2011-ci ilin yanvar ayından fəaliyyətə başlamışdır.

175. Azərbaycanın sürətli iqtisadi inkişafı ilə əlaqədar məhkəmələrin iş yükünün dəfələrlə çoxalması nəzərə alınaraq hakimlərin sayı 2 dəfə artaraq 600-ə çatdırılmış, məhkəmə aparatı işçilərinin sayı isə 75% artırılmış, hər bir hakimə köməkçi ştatı ayrılmışdır. Hakimlərin maddi təminatının yaxşılaşdırılması məsələsi də diqqət mərkəzində olmuş, 2000-ci illə müqayisədə onların əmək haqları orta hesabla 30 dəfə artırılmışdır.

176. Son illərdə qanunvericiliyə edilmiş dəyişikliklər nəticəsində məhkəmə hakimiyyətinin özünüidarə orqanı olan Məhkəmə-Hüquq Şurasının səlahiyyətləri daha da genişlənmiş, o cümlədən hakimlərin ümumi sayı çərçivəsində məhkəmələr üzrə hakimlərin sayının müəyyən edilməsi, hakimlərin xidməti vəsiqələrinin nümunələrinin təsdiq edilməsi, öz ərizəsinə əsasən hakimlərin səlahiyyətinə xitam verilməsi, habelə hakimlərin müstəqilliyinin təmin edilməsi kimi mühüm məsələlərin həlli Məhkəmə-Hüquq Şurasına həvalə edilmişdir.

177. Eyni zamanda ölkəmizin tarixində ilk dəfə olaraq hakimlərin Məhkəmə-Hüquq Şurasının Aparatına, habelə tədris fəaliyyətində və məhkəmələrdə işin təşkili fəaliyyətinin yoxlanılmasında iştirak məqsədilə Ədliyyə Nazirliyinə ezam edilməsi institutu təsis edilmiş, habelə hakimlərin fəaliyyətinin qiymətləndirilməsi (müddət 5 ilədək artırılıb), intizam icraatının aparılması və şikayətlərə baxılması mexanizmləri təkmilləşdirilmişdir.

178. Həmçinin, 2005-ci ildən hakimliyə namizədlərin Avropada ən mütərəqqi və şəffaf üsullarla seçilməsi qaydası müəyyən edilmişdir. Çoxsaylı imtahan və müsahibələrdən, namizədlərin hakim vəzifələrinə hazırlanmaları üçün uzunmüddətli kurs və təcrübədən ibarət olan bu seçim proseduru müstəqil qurum, tərkibi əsasən hakimlərdən ibarət olan – Hakimlərin Seçki Komitəsi tərəfindən təşkil edilir. Bu prosedurlarla son illər ərzində 235 nəfər hüquqşünas seçilərək hakim vəzifələrinə təyin olunmuşlar. Hazırda hakim korpusunun 50 faizini, o cümlədən Bakı şəhərinin rayonları üzrə 80 faizini məhz bu hakimlər təşkil edir.

179. Cari ildə isə 72 nəfər hakimliyə namizəd bütün imtahanları, o cümlədən bir il müddətində davam etmiş təlim mərhələsini və məhkəmələrdə stajkeçməni uğurla başa

vuraraq, hakim vəzifəsinə layiq bilinmişlər. Həmin namizədlərin hakim vəzifəsinə hazırlanmaları üçün Ədliyyə Akademiyasında keçirilən yüksək səviyyəli təlimlərdə insan haqlarının qorunması, Avropa məhkəməsinin presedentləri, korrupsiyaya qarşı mübarizə, məhkəmə etikası və digər aktual mövzuların tədrisinə xüsusi əhəmiyyət verilmiş, onların Türkiyədə yarımaylıq təlimi təşkil edilmişdir.

180. Həmin hakimliyə namizədlərin təyinatı ilə məhkəmə korpusunda mövcud olan vakansiyaların tam əksəriyyəti komplektləşdirilmişdir ki, bu da hakimlərin iş yükünün xeyli azalmasına səbəb olacaq və işlərə daha keyfiyyətlə baxılmasını şərtləndirəcəkdir.

181. Azərbaycanda həyata keçirilən mütərəqqi məhkəmə islahatlarının müsbət nəticələri nüfuzlu beynəlxalq təşkilatların da diqqətini cəlb etmişdir. Belə ki, Avropa Şurasının Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Komissiyası (CEPEJ) Avropa hüquq sistemləri üzrə hesabatında respublikamızda məhkəmə islahatlarına göstərilən diqqəti yüksək dəyərləndirmiş, həmçinin, ölkəmizdə hakimliyə namizədlərin seçilməsi prosesi Komissiyanın böyük marağına səbəb olmuşdur. Bununla əlaqədar yaradılmış nüfuzlu ekspert qrupunun üzvləri Azərbaycana səfər edərək hakimliyə namizədlərin seçimini bilavasitə izləmiş, bu prosedurlarla bağlı yerli və beynəlxalq təşkilatların nümayəndələri ilə çoxsaylı görüşlər keçirmiş, müzakirələr aparmış, milli qanunvericiliyimizi təhlil etmişlər.

182. Nəticələr üzrə ekspertlər tərəfindən hazırlanmış əhatəli hesabatda bu sahədə Azərbaycanda formalaşmış institusional qurumların fəaliyyətinin və hakimlərin seçiminin mütərəqqi Avropa standartlarına cavab verdiyi vurğulanmış və proses xüsusi şəffaflığı və obyektivliyi ilə fərqləndirilmişdir. Komissiyanın Avropa Şurasının bütün üzv dövlətlərinin nümayəndələrinin iştirakı ilə keçirilmiş iclasında həmin hesabat müzakirə edilmiş və qəbul olunmuş qərara əsasən Azərbaycanın müsbət təcrübəsi örnək kimi qiymətləndirilmişdir.

183. Avropa İttifaqı tərəfindən həyata keçirilən Şərq Tərəfdaşlığı ölkələrində məhkəmə islahatlarının gücləndirilməsi layihəsi üzrə hesabatda da Azərbaycanda hakimliyə namizədlərin seçimi proseduru üzrə fəaliyyət metodu müsbət nümunə kimi qiymətləndirilmiş və digər üzv dövlətlərə bu təcrübəyə əsaslanmaq tövsiyə edilmişdir.

184. Məlumat üçün bildirilir ki, ötən dövrdə Ədliyyə Nazirliyi tərəfindən yoxsul əhalinin vətəndaş hüquqları barədə məlumatlandırılması və onların pulsuz hüquqi yardım xidmətlərindən istifadə imkanlarının genişləndirilməsi məqsədilə bölgələrdə regional hüquqi məsləhət xidmətləri mərkəzləri yaradılmış, bu mərkəzlərin zəruri biliyə malik hüquqşünas kadrlarla komplektləşdirilməsi, aidiyyəti ədliyyə orqanlarının və məhkəmələrin inzibati binalarında yerləşdirilməsi təmin edilmiş, mütəxəssislər zəruri hüquq ədəbiyyatı və texniki vasitələr ilə təchiz olunmuşlar. Həmçinin, əhalinin aztəminatlı təbəqəsinə pulsuz hüquqi yardım göstərmək məqsədilə "Ədliyyə sahəsində İslahatlara Dəstək Proqramı" çərçivəsində Ədliyyə Akademiyasında hüquq klinikası yaradılmışdır.

185. Ədliyyə Nazirliyinin mətbu nəşrlərində insan hüquq və azadlıqların müdafiəsinə, o cümlədən ayrı-seçkiliyin qadağan edilməsinə, sülh və dözümlülüyün təbliğinə yönəlmiş yazılar dərc edilir, nazirliyin internet səhifəsində aidiyyəti məlumatlar yerləşdirilir. Nazirliyin BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı ilə əməkdaşlığı çərçivəsində insan hüquqları sahəsində beynəlxalq sənədlər üzrə hökumətimizin təqdim etdiyi milli hesabatlara dair BMT-nin müvafiq saziş qurumlarının, o cümlədən İrqi ayrı-seçkiliyin

ləğv edilməsi üzrə Komitənin tövsiyələri Azərbaycan dilinə tərcümə olunaraq nəşr edilmiş və aidiyyəti qurumların istifadəsinə verilmişdir.

186. Sadalananlardan əlavə qeyd etmək lazımdır ki, irqi ayrı-seçkiliklə əlaqədar müddəalar hakimlərin, dövlət qulluqçularının fəaliyyətinin tənzimləyən ayrıca normativ aktlarda, o cümlədən davranış kodekslərində də təsbit edilmişdir. Belə ki, Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının 22 iyun 2007-ci il tarixli qərarı ilə təsdiq edilmiş "Hakimlərin Etik Davranış Kodeksi"nin 8-ci maddəsinə əsasən, hakim irqi, cinsi, dini və ya milli xarakterli fikir nümayiş etdirməməli, hər hansı diskriminasiyaya yol verməməlidir.

187. "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının 31 may 2007-ci il tarixli Qanununun 11.1-ci maddəsinə əsasən, dövlət qulluqçusu xidməti vəzifəsini yerinə yetirərkən və ya qərar qəbul edərkən qərəzsiz olmalı və bu zaman irqinə, milliyyətinə, dininə, dilinə, cinsinə, sosial mənşəyinə, əmlak və qulluq vəziyyətinə, əqidəsinə, ictimai və ya hər hansı digər birliyə mənsubiyyətinə görə hər hansı şəxsin və ya şəxslər qrupunun üstünlüyünə və ya belə üstünlüyün əldə edilməsi üçün şəraitin yaradılmasına yol verməməlidir.

188. "ASAN xidmət" mərkəzlərində fəaliyyətin tənzimlənməsi və davranış Qaydaları", "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin "Çağrı" mərkəzinin fəaliyyətinin təşkili Qaydaları", "İnformasiya sistemləri, informasiya ehtiyatları və elektron xidmətlər ilə bağlı dövlət orqanları tərəfindən təqdim olunan layihələrə (təkliflərə) onların məqsədəuyğunluğu barədə rəy verilməsi Qaydaları" və "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Kollegiyasının iclaslarının iş Qaydaları"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Kollegiyasının 6 iyun 2013-cü il tarixli qərarının 8.8-ci bəndinə əsasən, əməkdaş qərəzsiz olmalı, xidməti vəzifəsini yerinə yetirdiyi zaman insanların irqinə, milliyyətinə, dininə, dilinə, cinsinə, sosial mənşəyinə, əmlak və qulluq vəziyyətinə, əqidəsinə, ictimai və ya hər hansı digər birliyə mənsubiyyətinə görə ayrı-seçkiliyə yol verməməlidir.

189. Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın 2008-ci il 30 aprel tarixli, 80 nömrəli əmri ilə təsdiq edilmiş "Dövlət orqanlarında inzibati vəzifələrin altıncı-doqquzuncu təsnifatlarına uyğun olan vəzifələrin tutulması üçün ehtiyat kadrların formalaşdırılması Qaydaları"nın 5.2-ci bəndində təsbit olunmuş bərabərlik prinsipi-bütün ehtiyat kadrların irqindən, milliyyətindən, dilindən, cinsindən, sosial mənşəyindən, əmlak və qulluq vəziyyətindən, dinə münasibətindən, əqidəsindən, siyasi partiyaya, ictimai və ya digər birliyə mənsubiyyətindən asılı olmayaraq ehtiyat kadrların formalaşdırılması ilə əlaqədar eyni hüquqlara malik olması və eyni vəzifələr daşımasını, həmçinin bütün ehtiyat kadrların eyni qaydada siyahıya daxil edilməsi, idarə edilməsi və həmin siyahıdan çıxarılması kimi müəyyən olunmuşdur.

190. Yekun icmalın 14-cü bəndində Konvensiyanın və Komitənin ümumi tövsiyələri haqqında məlumatların yayılması tövsiyə olunmuşdur. Bununla bağlı bildiririk ki, "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"na əsasən insan hüquqlarının müdafiəsini tənzimləyən beynəlxalq sənədlərin, o cümlədən "İrqi-ayrıseçkiliyin bütün formalarının aradan qaldırılması haqqında" Konvensiyanın müddəaları məhkəmələr tərəfindən tətbiqi

üzrə araşdırma və tədqiqatlar aparılır. 2009-2013-cü ilin 6 ayı ərzində respublikanın birinci və apellyasiya instansiya məhkəmələrində baxılan işlərdə yuxarıda göstərilən Konvensiyanın müddəalarına istinad edilməmişdir. Bunun səbəbi tolerant ölkə olan Azərbaycanda irqi ayrı-seçkilik halları ilə bağlı işlərin olmadığı ilə izah edilə bilər.

191. Bununla yanaşı qeyd edilməlidir ki, Azərbaycan Respublikasının beşinci və altıncı birgə məruzəsinin təqdim olunmasından sonra keçən dövr ərzində "İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Beynəlxalq Konvensiya və Komitənin ümumi tövsiyyələrinin reallaşdırılması ilə əlaqədar bir sıra qanunvericilik aktların qəbul olunmuş və ya qüvvədə olan qanunlara müvafiq əlavə və dəyişikliklər edilmişdir.

192. Belə ki, Azərbaycan Respublikasının 2 iyul 2013-cü il tarixli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikası Miqrasiya Məcəlləsinin 74.4-cü maddəsində əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin onların sosial və əmlak vəziyyəti, irqi və milli mənsubiyyəti, cinsi, dili, dinə münasibəti, fəaliyyətinin növündən və xarakterindən və digər hallardan asılı olmayaraq, Azərbaycan Respublikasında qanun və məhkəmə qarşısında bərabərliyi təsbit olunmuşdur.

193. Azərbaycan Respublikasının "Fərdi məlumatlar haqqında" 11 may 2010-cu il tarixli Qanununun 2.1.6-cı maddəsində fiziki şəxsin irqi və ya milli mənsubiyyətinə, ailə həyatına, dini etiqadına və əqidəsinə, səhhətinə və ya məhkumluğuna aid olan məlumatlar xüsusi kateqoriyalı fərdi məlumatlara aid edilmişdir.

## Maddə 7

194. "Təhsil haqqında" Azərbaycan Respublikasının 19 iyun 2009-cu il tarixli Qanununun 5.2-ci maddəsinə əsasən, dövlət cinsindən, irqindən, dilindən, dinindən, siyasi əqidəsindən, milliyyətindən, sosial vəziyyətindən, mənşəyindən, sağlamlıq imkanlarından asılı olmayaraq, hər bir vətəndaşa təhsil almaq imkanı yaradılmasına və ayrı-seçkiliyə yol verilməməsinə təminat verir.

195. 2013-cü ilin əvvəlinə respublikada 1677 məktəbəqədər təhsil müəssisəsi fəaliyyət göstərir ki, onlardan 10-da 409 uşaq olmaqla təlim və tərbiyə yalnız rus dilində, 6-da 280 uşaq olmaqla gürcü dilində aparılır. Azərbaycan və rus dilində fəaliyyət göstərən 183 müəssisədə 22247 uşaq təlim və tərbiyə alır və onların da 6268 nəfəri rus dilində olan qruplardadır. Azərbaycan və gürcü dillərində olan 2 müəssisədə isə 180 uşaq təlim və tərbiyə alır ki, onların da 40 nəfəri gürcü dilində olan qruplardadır.

196. 2012-2013-cü ilin əvvəlinə təhsil yalnız rus dilində aparılan 17 məktəbdə 3822 şagird, gürcü dilində olan 6 məktəbdə 748 şagird, ingilis dilində olan 2 məktəbdə 1082 şagird, türk dili olan 1 müəssisədə isə 1218 şagird təhsil alır. Azərbaycan və rus dillərində olan 318 məktəbdə rus bölməsində 82809 şagird, azərbaycan və gürcü dilində olan 5 məktəbdə gürcü bölməsində 390 şagird, azərbaycan və ingilis dilində olan 1 məktəbdə isə 295 şagird təhsil alır. Azərbaycan, rus və gürcü dilində olan 1 məktəbdə 105 şagird rus dilində olan bölmədə, 111 şagird isə gürcü dilində olan bölmədə təhsil alır. Azərbaycan, rus və ingilis dilində olan 2 məktəbdə 385 şagird rus dilində olan bölmədə, 85 şagird isə ingilis dilində olan bölmədə təhsil alır. Azərbaycan, türk və ingilis dilində olan 3 məktəbdə 365 şagird türk dilində olan bölmədə, 320 şagird isə ingilis dilində olan bölmədə təhsil alır.

197. Yekun İcmalın 16-cı bəndində qeyd olunmuş hüquq-mühafizə orqanları əməkdaşları, müəllimlər və dövlət qulluqçularının insan hüquqları sahəsində maarifləndirilməsi və onlara təlimlərin keçilməsinin intensivləndirilməsi ilə bağlı qeyd edirik ki, “Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı”nda orta ixtisas və ali təhsil müəssisələrində insan hüquqlarının tədrisinin genişləndirilməsi, məktəblilər və tələbələr üçün insan hüquqlarına dair olimpiadaların, müsabiqələrin, sərgilərin və digər tədbirlərin keçirilməsinin, insan hüquqları ilə bağlı dərs vəsaitlərinin, əyani vəsaitlərin, bukletlərin, plakatların hazırlanması, nəşr edilməsi və əhali arasında yayılması işinin davam etdirilməsi, ali təhsil və elm ocaqlarında insan hüquq və azadlıqları problemlərinə dair elmi-tədqiqat işlərinin təkmilləşdirilməsi üçün zəruri tədbirlər müəyyən olunmuşdur. Proqramda həmçinin insan hüquq və azadlıqlarına təhlükə yaradan təcavüz, terrorçuluq, korrupsiya, insan alveri kimi cinayətlərin qarşısının alınması, mədəniyyətlər və dinlərarası dialoqun, eləcə də dini tolerantlığın gücləndirilməsi mövzularında ölkədaxili və beynəlxalq tədbirlərin (dəyirmi masa, seminar, konfrans və s.) davam etdirilməsi, əhalinin hüquq düşüncəsinin və hüquq mədəniyyətinin inkişaf etdirilməsi, ayrı-seçkiliyin yolverilməzliyi, sülh və dözümlülük mədəniyyətinin, xalqımızın milli-mənəvi dəyərlərinin təbliği məqsədilə maarifləndirmə tədbirlərinin keçirilməsi, etnik azlıqların mədəni irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsində fəaliyyətin davam etdirilməsi nəzərdə tutulmaqla, onların icrası təmin edilir.

198. Hüquq-mühafizə orqanları əməkdaşları, müəllimlər, sosial sahədə çalışanlar və dövlət qulluqçuları üçün insan hüquqları təhsil və təlimlərinin intensivləndirilməsi və proses zamanı Komitənin 1993-cü il 13 nömrəli ümumi tövsiyəsi ilə bağlı bildiririk ki, Komitənin qeyd olunan tövsiyəsinə uyğun olaraq, Ədliyyə Akademiyasında hakimlər, hakimliyə namizədlər, ədliyyə işçiləri, vəkillər və digər hüquqşünaslar üçün təşkil olunan tədris kurslarının proqramına insan hüquqlarının müdafiəsi sahəsində aktual beynəlxalq sənədlər, o cümlədən BMT və Avropa konvensiyaları, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedentləri, habelə milli qanunvericilikdə olan yeniliklərə dair mövzular daxil edilir.

199. Eyni zamanda, Azərbaycan Respublikası bu istiqamətdə Avropa Şurasının müxtəlif proqram və layihələrində, o cümlədən Hüquqşünasların insan hüquqları üzrə tədrisinə dair Avropa Proqramı (HELP Proqramı), habelə Hakimlərin və prokurorların tədrisinə məsul olan şəxslər və təşkilatlar arasında məlumat mübadiləsi üzrə Avropa Şəbəkəsində (Lissabon Şəbəkəsi) iştirakını davam etdirir, ölkəmiz həmin institutlarda ədliyyə nazirinin müavini səviyyəsində təmsil olunur.

200. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planının təsdiq edilməsi haqqında" 28 dekabr 2006-cı il (2006-2011) və 27 noyabr 2011-ci tarixli (2012-2015) Sərəncamlarından irəli gələn vəzifələrin tam yerinə yetirilməsi məqsədilə DİN-in 5 fevral 2007-ci il tarixli əmri ilə Daxili İşlər Nazirliyində "İnsan hüquqlarının müdafiəsi üzrə Komissiya" yaradılmış, habelə müvafiq olaraq 5 fevral 2007-ci il və 31 yanvar 2012-ci il tarixlərdə xüsusi Tədbirlər Planı hazırlanaraq icraya yönəldilmişdir. Hər iki Planda insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi ilə bağlı normativ-hüquqi bazanın təkmilləşdirilməsi, insan hüquqları sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatlarla əməkdaşlıq, əhalinin müxtəlif qruplarının hüquqlarının müdafiəsinin gücləndirilməsi sahəsində tədbirlər, polis orqanlarının fəaliyyətinin insan hüquqlarının təmini baxımından təkmilləşdirilməsi, habelə insan hüquqları sahəsində tədris, maarifləndirmə, eləcə də elmi-analitik və əməkdaşlıq kimi mühüm məsələlər nəzərdə tutulmuşdur.

201. Daxili işlər orqanları əməkdaşlarının peşəkarlığının, dünyagörüşünün artırılması, beynəlxalq təcrübədən bəhrələnməsi istiqamətində görülən işlər məqsədyönlü və sistemli şəkildə həyata keçirilir. Onlar müxtəlif ölkələrə, o cümlədən Amerika Birləşmiş Ştatlarına və Avropa dövlətlərinə təlimlər keçməyə göndərilir, təcrübəli beynəlxalq ekspertlərin iştirakı ilə ölkəmizdə seminarlar, treninqlər, kurslar təşkil olunur. Qabaqcıl təcrübənin daha səmərəli tətbiqi məqsədilə Avropa Şurası, ATƏT və digər beynəlxalq təşkilatların xətti ilə keçirilən və daxili işlər orqanlarının fəaliyyətinin başlıca istiqamətlərini əhatə edən müxtəlif forum və müşavirələrdə iştirak edirlər. 2010-2013-cü ilin 6 ayı ərzində insan hüquqlarının qorunması sahəsində ölkədə və onun xaricində keçirilmiş treyninq, seminar, iclas, konfrans və digər tədbirlərdə 2291 nəfərdən artıq (1464 nəfər Azərbaycanda, 827 nəfər xaricdə) əməkdaş iştirak etmişdir.

202. Beynəlxalq təşkilatlarla sıx qarşılıqlı əməkdaşlıq əlaqələri çərçivəsində aparılan birgə işlərin məntiqi nəticəsi olaraq, insan və vətəndaş hüquq və azadlıqlarına riayət olunması üzrə Xüsusi Tədris Proqramı hazırlanmış və hazırda bu proqram əsasında Polis Akademiyasında, habelə şəxsi heyətin xidməti hazırlıq sistemində dərslər tədris olunur. Bundan əlavə, Akademiyanın "Dövlət və hüquq nəzəriyyəsi" kafedrasının nəzdində yaradılmış "Hüquq klinikası"na müraciət edən müdafiəyə ehtiyacı olan şəxslərə peşəkar hüquqi yardım göstərilməklə zəruri sənədlərin tərtibatında köməklik edilir.